Xalqın qəzeti!
# Xalq qəzeti
№ 157 (30851) 31 iyul 2025-ci il, cümə axşamı
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## 31 iyul 1997-ci il: Azərbaycan Olimpiya hərəkatında dönüş günü




səhifə ⇨ 4

## Sülh yoluna “daş qoyanlar”



səhifə ⇨ 3

## Doğru yol ortaq maraqlardan keçir



səhifə ⇨ 5

## Təcriddən qurtuluş – Zəngəzur dəhlizi olmasa...

*Nə İranın, nə də Ermənistanın “yara”sı sağalacaq*

**İran Prezidenti Məsud Pezeşkian deyib ki, ölkəsi təcili olaraq qonşuları ilə münasibətləri yaxşılaşdırmalıdır. Onun sözlərinə görə, güclü regional əlaqələr Qərbin sanksiyalarını neytrallaşdırmağa kömək edə bilər.**




Qeyd edək ki, İslam respublikasının dövlət başçısı fikirlərini İran parlamentinin Milli təhlükəsizlik və xarici siyasət komitəsinin üzvləri ilə görüşündə səsləndirib. Prezident onu da deyib ki, qonşu ölkələrlə münasibətləri sıxlaşdırmaq üçün sərhəd əyalətlərinə başçılıq edən şəxslərə səlahiyyətlər verilməlidir. “Qonşularımızla münasibətləri gücləndirsək, sanksiyalar öz qüvvəsini itirəcək. Bu gün biz qonşu və regional ölkələrlə əlaqələri həmişəkindən daha çox yaxşılaşdırmalıyıq”, - deyən Pezeşkian qonşu ölkələr deyərkən, Pakistan, Əfqanıstan, Türkmənistan, Ermənistan, Türkiyə və İraqla yanaşı, Azərbaycanın da adını çəkib və əlavə edib ki, bu ölkələr ümumi maraqları qorumaq üçün həyata keçirilməli olan qarşılıqlı faydalı əməkdaşlıq baxımından əhəmiyyətli potensiala malikdirlər.

ardı səhifə ⇨ 3

## “Qapalı dairə”dən çıxmağın vaxtı çatıb



səhifə ⇨ 4

## Sərhəd dirəkləri bölgədə yeni geosiyasi reallıq yaratdı



səhifə ⇨ 6

## Sənədsiz evlər də dövlət qeydiyyatına alınacaq

*“Daşınmaz əmlak amnistiyası” mənzil fondunun idarə edilməsini asanlaşdıracaq*



Azərbaycanda uzun illərdir ki, geniş müzakirə olunan, lakin həllində bir sıra çətinliklərin yaşandığı sənədsiz evlərin leqallaşdırılması prosesi yeni və əhəmiyyətli bir mərhələyə qədəm qoyur. Prezident İlham Əliyevin bu istiqamətdə imzaladığı mühüm sənəd – “Daşınmaz əmlakın dövlət reyestri haqqında” qanun qüvvəyə minənədək yaranan və əldə olunan daşınmaz əmlak obyektləri üzərində hüquqları təsdiqləyən sənədlərin siyahısında dəyişiklik edilməsi barədə qərarı, ölkədə hüquqi qeyri-müəyyənliyin aradan qaldırılması istiqamətində atılan mühüm addımlardan biridir. Bu sənəd minlərlə ailənin illərlə gözlədiyi hüquqi tanınma probleminin həlli üçün real zəmin formalaşdırır.

*(ardı 8-ci səhifədə)*

## “Rüsum müharibəsi”ndə “atəşkəs” olacaqmı?

*Tramp – Cinpin görüşündə razılıq əldə edilə bilər*



**ABŞ və Çin arasında keçirilən iki günlük danışıqların sonunda tərəflər yeni gömrük rüsumlarının tətbiq müddətinin uzadılması barədə razılığa gəlməyə yaxınlaşdı. Görüşlər ABŞ Prezidenti Donald Trampın Çin Xalq Respublikasının sədri Si Cinpinlə mümkün görüşünü nəzərdən keçirdiyi bir dövrdə baş tutdu.**

*(ardı 11-ci səhifədə)*

## Sənayedə qeyri-neft sektorunun çəkisi artır

səhifə ⇨ 7

# Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə

**Əlahəzrət!**
**Əziz Qardaşım!**

30 İyul – Mərakeş Krallığının milli bayramı münasibətilə Sizi və Sizin simanızda qardaş xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edir, ən xoş arzularımı çatdırıram.

İslam həmrəyliyi, ortaq dini-mənəvi dəyərlər ilə bir-birinə bağlı olan xalqlarımız və ölkələrimiz arasında əlaqələr bizim üçün böyük əhəmiyyət daşıyır. Qarşılıqlı hörmət və etimad ruhunda inkişaf edən dövlətlərarası münasibətlərimizin bugünkü səviyyəsi məmnunluq doğurur.

Əminəm ki, ənənəvi dostluq əlaqələrimiz, həm ikitərəfli, həm də çoxtərəfli əsasda qarşılıqlı faydalı əməkdaşlığımız xalqlarımızın mənafelərinə uyğun olaraq birgə səylərimizlə bundan sonra da möhkəmlənəcək və yeni məzmunla zənginləşəcəkdir.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 28 iyul 2025-ci il**

# Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, 2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Gəncə şəhərində və digər yaşayış məntəqələrində həlak olan sakinlərin xatirəsinin əbədiləşdirilməsi və müharibə reallıqlarının əks etdirilməsi məqsədilə **qərara alıram:**

**1** Gəncə şəhərində inşa olunan Gəncə Memorial Kompleksində tikinti-quraşdırma işlərinin tamamlanması və muzey ekspozisiyasının təşkili məqsədilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsinə 10,5 milyon (on milyon beş yüz min) manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 30 iyul 2025-ci il**

# Birinci yarımildə 162 milyon manat artıq və əsassız ödəniş aşkarlanıb



**Cari ilin birinci yarımilliyində Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən dövlət büdcəsindən vəsait alan 77 təşkilatda, əsasən son 3 ili əhatə edən dövr üzrə nəzarət tədbirləri həyata keçirilib.**

Nazirlikdən bildirilib ki, nəticədə ümumilikdə 162 milyon 11,12 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib, ilkin maliyyə nəzarəti çərçivəsində isə 10 milyon 220,8 min manat vəsaitin artıq xərclənməsinin qarşısı alınıb.

Hesabat dövründə xidmətin fəaliyyətinin əsas hissəsini Baş Prokurorluq və hüquq-mühafizə orqanlarından daxil olmuş məktub və qərarların icrası ilə əlaqədar həyata keçirilən nəzarət tədbirləri təşkil edib. Belə ki, prokurorluq və hüquq-mühafizə orqanlarının məktublarına və qərarlarına əsasən 53 təşkilatda yoxlamalar aparılıb, bu yoxlamalarla 85 milyon 240,02 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib. Aşkar edilmiş nöqsanlara hüquqi qiymət verilməsi məqsədilə yoxlama materialları aidiyyəti üzrə prokurorluq və hüquq-mühafizə orqanlarına təqdim olunub.

Bundan əlavə, iş planına və plandankənar nəzarət tədbirlərinə əsasən bu ilin birinci yarımilliyində xidmət tərəfindən 24 təşkilatda yoxlamalar aparılıb. Bu nəzarət tədbirləri nəticəsində ümumilikdə 76 milyon 771,1 min manat məbləğində artıq və əsassız ödənişlər aşkar edilib və müvafiq pozuntulara hüquqi qiymət verilməsi məqsədilə müvafiq materiallar Baş Prokurorluğa təqdim edilib.

Yoxlamalar zamanı hüquqi qiymət verilməsi üçün prokurorluq və hüquq-mühafizə orqanlarına göndərilmiş nəzarət obyektləri istisna olunmaqla digər nəzarət obyektlərində nöqsanlara yol verən vəzifəli şəxslər barəsində Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 410.1 və 410.2-ci maddələrinə əsasən inzibati xəta törətdiklərinə görə 27 nəfər vəzifəli şəxsə cərimələr tətbiq olunub və həmin cərimələrin dövlət büdcəsinə ödənilməsi təmin olunub.

Dövlət Maliyyə Nəzarəti Xidməti tərəfindən aşkar edilmiş nöqsanların aradan qaldırılması, gələcəkdə təkrar olunmasının qarşısının alınması və nöqsanlara yol vermiş vəzifəli şəxslər barəsində səlahiyyətləri daxilində tədbirlər görülməsi məqsədilə aidiyyati mərkəzi və yerli icra hakimiyyəti orqanlarına müvafiq məktublar göndərilib.

# Azərbaycan qazı Suriyaya da nəql olunacaq

**"Bu həftə Azərbaycandan nəql olunan qazı Suriyaya tədarük edəcəyik".**

AZƏRTAC Türkiyə mətbuatına istinadən xəbər verir ki, bunu Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar açıqlayıb.

"Azərbaycanla SVOP razılaşması imzalamışıq. Bununla da Azərbaycandan ixrac olunan qazı Kilis üzərindən Suriyaya, Dəməşqə ixrac edəcəyik. Avqustun 2-də Azərbaycan, Suriya və Qətərdən olan həmkarlarım ilə bu mərasimi Kilisdə rellaşdıracağıq", – deyə türkiyəli nazir qeyd edib.

Alparslan Bayraktar onu da əlavə edib ki, nəql olunacaq qaz Suriyanın elektrik enerjisinin istehsalında istifadə olunacaq: "Suriyaya ixrac olunacaq 6 milyon kubmetr qaz ilə gündəlik 1200 meqavat həcmində elektrik enerjisi istehsalını həyata keçirmək mümkün olacaq. Beləliklə, Suriyadakı mövcud enerji təsisatlarını yanacaqla təmin etmiş olacağıq. Bununla da Suriyada hazırda gün ərzində mövcud olan 3-4 saatlıq elektrik enerjisi verilişi, 10 saata qədər artırılacaq. Bu, insanların həyatına müsbət təsir göstərəcək".

# Milli Məclisin sədri Cenevrədə



**Milli Məclisin sədri Sahibə Qafarova iyulun 30-da İsveçrə Konfederasiyasının Cenevrə şəhərində keçirilən Parlament Sədrlərinin 6-cı Dünya Konfransının ikinci günündə ümumi müzakirələrə sədrlik edib.**

Sonra müzakirələr Çin Xalq Respublikası Ümumçin Xalq Nümayəndələri Məclisinin Daimi Komitəsinin sədri Jao Lejinin sədrliyi ilə davam edib.

Qeyd edək ki, konfrans Birləşmiş Millətlər Təşkilatının Cenevrə ofisində BMT və Parlamentlərarası İttifaqın birgə təşkilatçılığı ilə keçirilir. Konfransda ümumilikdə 120 nümayəndə heyəti, o cümlədən 102 ölkənin parlament sədrləri, 38 ölkənin vitse-spikerləri, həmçinin Parlamentlərarası İttifaqın əməkdaşlıq etdiyi beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər.

*

**Milli Məclisin sədri Sahibə Qafarova İsveçrənin Cenevrə şəhərinə işgüzar səfəri çərçivəsində iyulun 30-da İrlandiya Parlamenti Nümayəndələr Palatasının sədri Verona Mörfi və Moldova Parlamentinin sədri İqor Qrosu ilə görüşlər keçirib.**



Verona Mörfi ilə görüşdə parlamentlərin beynəlxalq fəaliyyətinin, parlament diplomatiyasının əhəmiyyəti qeyd olunub. Söhbət zamanı Azərbaycan və İrlandiya parlamentləri arasında əlaqələrin daha da gücləndirilməsinin vacibliyi vurğulanıb.

Görüşdə parlamentlərarası dostluq qruplarının qarşılıqlı əməkdaşlığın inkişaf etdirilməsi baxımından əhəmiyyəti qeyd olunub və gələcəkdə bu əlaqələrin daha da gücləndirilməsinə dair qarşılıqlı niyyət ifadə olunub.

Moldova Parlamentinin sədri ilə görüşdə isə ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsindən məmnunluq ifadə olunub. Azərbaycan və Moldovanın beynəlxalq təşkilatlarda bir-birinə qarşılıqlı dəstəyi qeyd edilib.

Sahibə Qafarovanın konfransı çərçivəsində Qazaxıstan Respublikası Parlamenti Məclisinin sədri Yerlan Koşanov, Kot-d'İvuar Respublikası Milli Assambleyasının sədri Adama Biktogo ilə görüşləri də olub.

***XQ***

# Vilayət Eyvazov Astarada vətəndaş qəbulu və sıra baxışı keçirib

**Daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iyulun 29-da və 30-da Astara Rayon Polis Şöbəsinin inzibati binasında növbəti vətəndaş qəbulu keçirib.**



Polis Şöbəsinin inzibati binasında Yardımlı, Astara, Lerik, Masallı, Lənkəran şəhər və rayonlarından qəbula gələn 454 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün Nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.



Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Daxili işlər naziri general-polkovnik V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlar verib.

Səfər çərçivəsində general-polkovnik V.Eyvazov DİN Daxili Qoşunlarının Lənkəran rayonunda yerləşən hərbi hissəsinə gedib, orada ölkəmizin suverenliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidəni ziyarət edib.

Sonda general-polkovnik Vilayət Eyvazov Daxili Qoşunların hərbi hissəsinin sıra meydanında polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib.

Vətən müharibəsinin 19 iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 297 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

***XQ***

# BMT-nin Qida Sistemləri üzrə II Sammiti

## *Azərbaycan qida sistemlərinin transformasiyası istiqamətində qlobal səyləri dəstəkləyir*

**Efiopiyanın paytaxtı Əddis-Əbəbə şəhərində BMT-nin Qida Sistemləri üzrə II Sammiti (UNFSS+4) işə başlayıb.**



Tədbir çərçivəsində Nazirlərin Yüksək Səviyyəli Toplantısında çıxış edən Məcnun Məmmədov artan çağırışlar fonunda bəşəriyyətin gələcəyi üçün qida sistemlərinin transformasiyasının mühüm əhəmiyyət kəsb etdiyini qeyd edib.

İqlim dəyişikliyi və digər qlobal çağırışların aqroərzaq sistemlərinə təhdid yaratdığını deyən nazir vaxtında və koordinasiya olunmuş fəaliyyətin vacib olduğunu, qida sistemlərinin transformasiyasının zəruri olduğunu diqqətə çatdırıb.

Məcnun Məmmədov Sammit çərçivəsində Somali, Efiopiya, Ruanda respublikalarının kənd təsərrüfatı nazirləri, eləcə də Konqonun xarici işlər və əməkdaşlıq naziri Jan-Klod Qakosso və Afrika İttifaqının Kənd təsərrüfatı komissarı Moses Vilakati ilə görüşüb.

# Təcriddən qurtuluş – Zəngəzur dəhlizi olmasa...

(əvvəli 1-ci səhifədə)

Bəri başdan deyək ki, cənab Pezeşkianın yanaşması mütərəqqidir. Amma maraqlı məqam var. Məsələ ondadır ki, İranın "Sepah Pasdaran" adlı telegram kanalı var ki, o da ölkə parlamentinin sözügedən komitəsinin iclası ilə bağlı məlumat yayıb. Həmin məlumatda bildirilib ki, Ermənistan İranın qonşusu və strateji tərəfdaşıdır və İslam respublikası hər zaman onunla ən yaxşı münasibətlərə malik olub. Çünki Ermənistan İranın Avropa ilə əlaqəsi rolunu oynayır. Ən əsası isə "Sepah Pasdaran" iclasda səslənmiş bu fikri qabardıb: "Bu dəhlizin (Zəngəzur dəhlizi – red.) yaradılması milli maraqlarımıza ziddir. Biz bölgədə sionistlərin fəallığını və neoosmanizm iddialarını görürük. Məsələdə Ermənistan hökuməti ilə mövqeyimiz üst-üstə düşür".

Pezeşkianın mövqeyi ilə "Sepah Pasdaran"ın açıqladığı fikirlər onu göstərir ki, İranın parlament komitəsinin iclası xeyli gərgin keçib. O da görünür ki, dövlət başçısı üçün bütün qonşular prioriteti var. Hərçənd, onun fikrinin birmənalı qarşılanmadığını da söyləmək mümkündür. Çünki bütün qonşular deyil, bilavasitə Ermənistanın vacibliyindən söz açanların səsi gəlir. Yəni, birinci şəxs düşünür ki, indiki durumda İranın qarşısında dayanan başlıca vəzifə Qərbin sanksiyalarını aradan qaldırmaqdır və qonşularla əlaqələrin sıxlaşdırılması bu baxımdan vacibdir, digər cinah isə belə qənaətdədir ki, sanksiyalardan çıxmağın tək yolu Ermənistanla münasibətlərdir.

Bəli, belə təsəvvür yaranır ki, cənab Pezeşkian hazırkı duruma köhnə klişelərlə yanaşmır, məsələni geniş götürür. Onun bir müddət əvvəlki sosial şəbəkə paylaşımı da fikrimizi təsdiqləyə bilər. Məsələn, Prezident Pezeşkian həmin paylaşımında gələcəyə fərqli nəzərlərlə baxmağın, daha rasional davranmağın əhəmiyyətini vurğulamış, bir çox məsələlərə yanaşmanın dəyişməli olduğunu yazmışdı. Əlbəttə, onu demək istəmirik ki, İranda dəyişiklik məsələsini süngü ilə qarşılayan mühafizəkar kəsim var və bu kəsim Prezidentə əks mövqedə dayanır.

Amma bu məqam dəqiqdir: Ermənistanda olduğu kimi, İranda da Zəngəzur dəhlizi ilə bağlı məsələ siyasi gündəmin başlıca mövzusudur. Qeyd edək ki, "Sepah Pasdaran" bir neçə gün əvvəl İranın Ali Dini Liderinin beynəlxalq məsələlər üzrə müşaviri, sabiq xarici işlər naziri Əli Əkbər Vilayətinin mövzuya yanaşmasını




paylaşmışdı. Cənab Vilayətinin dedikləri ilə telegram kanalının hazırda açıqladıqları, demək olar, eynidir. Yalnız bir fərq var ki, müşavir, bilavasitə, Ermənistandan söz açmamış və demişdi ki, Zəngəzur dəhlizi layihəsi, guya, regional inteqrasiyaya, iqtisadi sabitliyə, xalqların rifahına yönəlməyib. Əksinə, bu ideya İranı və Rusiyanı qurudan mühasirəyə almaq məqsədi daşıyan tələdir. Sanki tələyə düşməmək üçün müqavimət göstərilməlidir. Diplomatın fikrincə, Tehranla Moskva Qərbə qarşı müştərək cəbhənin üzvləridirlər.

Cənab Vilayəti açıqlamasında dolayısı ilə xəbərdarlıq etmişdi ki, Tehran Zəngəzur dəhlizinə qarşı sözlə deyil, həm də əməllə də cavab verəcək. "Sepah Pasdaran" onun mövqeyini "İran öz "qırmızı xəttini" nümayiş etdirərək, sərhədə hərbi qüvvələr yerləşdirib və təlimlər keçirib" şəklində təqdim etmişdi. Kanal, həmçinin, bildirmişdi ki, passiv və müşahidəçi siyasət erası bitib, "İran indi qabaqlayıcı və aktiv strategiya yürüdür". Çünki "bu dəhlizin arxasında ABŞ, NATO, sionist rejim və pantürkist dairələr dayanır".

Belə bir durumda Prezident Pezeşkianın dediklərinin konstruktivlik fazasının daha yüksək olduğu aydındır. Çünki o, ölkəsinin məhz indi tələdə olduğunu vurğulayır. Doğrudur, dövlət başçısının təqdimatı başqa cürdür. Cənab Pezeşkian daha çox sanksiyalardan yan ötmək üzərində dayanır. Amma, principsə, mahiyyət eynidir. Axı indiki durumda İran daha çox təcrid altındadır. Başqa sözlə desək, Ermənistanla əlaqələr Qərbin sanksiyalarından qorumur.

Üstəlik, erməni iqtidarı üçün Ermənistanın İslam respublikası ilə münasibətlərinin Qərblə təmaslardan daha üstün status daşıdığını söyləmək mümkünsüzdür. Qərb çox asanlıqla İrəvan-Tehran əlaqələri müstəvisində birincinin mənfəətini sığortalaya, baş nazir Nikol Paşinyan administrasiyasına İranla əlaqələri kəsmək göstərişi verə bilər. Nəzərə alsaq ki, İranı sanksiyalara məruz qoyan Qərbdir, həmin Qərbin Tehranın vəziyyətini daha da ağırlaşdırmağı düşünməyəcəyini və bu zaman İrəvanı alət kimi yada salmayacağını söyləmək mümkünsüzdür. Görəsən, İran hakim siyasi elitası Ermənistana bu qədərmi etibar edir?

Reallıq budur ki, İran-Ermənistan ənənəvi yolundan ikincinin qazancı elə də böyük deyil və həmin yol məhdudlaşsa, İranın Avropaya çıxışı tamamilə bağlanacaq, Tehran üçün təcrid bir qədər də dərinləşəcək. Görəsən, İranda bu barədə də düşünən varmı? Ehtimal etmək mümkündür ki, Prezident Pezeşkiandan başqa kimsə məsələnin fərqinə varmır. Fərqinə varılsaydı, nə Vilayəti, nə də İran Parlamentindəki müzakirə zamanı ənənəvi kursun tərəfdarları Zəngəzur dəhlizinə qarşı çıxardı.

Məsələ ondadır ki, Ermənistan da təcrid durumdadır və ötən müddət göstərdi ki, yalnız İranla quru əlaqəsinə bel bağlamaq vəziyyəti aradan qaldırmayacaq. Qərbin "kəbinlik arvad" qayğısına da bel bağlamaq mümkünsüzdür. Çünki Gürcüstana da vaxtilə indi Ermənistana olan qlamur yanaşma var idi. Hətta ölkənin polisinin əmək haqqı da ABŞ Dövlət Departamenti tərəfindən ödənilirdi. Amma sonradan Qərb, loru dildə desək, quyunu ora daimi su tökməklə saxlamaq üçün əlini cibinə atmadı. Daha sonra yaşananlar da hər kəsə məlumdur, hazırda Qərb-Gürcüstan ziddiyyəti də. Yəni, Ermənistan, necə deyərlər, başına çarə tapmalıdır. Çarə isə Azərbaycanla və Türkiyə ilə münasibətlərin normallaşmasındadır.

O da tam aydındır ki, İrəvanın Bakı ilə münasibətlərinin hazırkı axarında Türkiyə-Ermənistan sərhədlərinin açılması qeyri-mümkündür, prosesin müstəqil, ölkəmizdən kənar seqmenti yoxdur. Ermənistanın Avropa ilə əlaqələrinin Türkiyə üzərindən gerçəkləşməsinin optimallığı amili isə var. Bunu Qərbdə çox gözəl anlayırlar. Elə erməni iqtidarı da durumun fərqindədir. Onun fərqində olmadığı haqqında az əvvəl söz açdığımız qeyri-mümkünlükdür. Paşinyan administrasiyası dəfələrlə çalışıb ki, Ankara ilə münasibətləri Bakı ilə münasibətlərdən kənar tutsun. Amma heç vaxt istəyinə çatmayıb və çata da bilməz. Deməli, Zəngəzur dəhlizi olmadan Ankara-İrəvan xəttində də optimallıqdan danışmaq mənasızdır və bunu Türkiyə rəhbərliyinin bəzən dolayısı ilə, bəzənsə açıq şəkildə vurğuladığı məlumdur.

Bütün bunları nəzərə alsaq, cənab Pezeşkianın irəli sürdüyü region dövlətləri ilə əlaqələrin gücləndirilməsi və bununla sanksiyalardan qorunmağın, onların təsirini heçə endirməyin vacibliyi məntiqi tam yerinə düşür. Deməli, İslam respublikasının dövlət başçısının dilə gətirdiyi fikirlər Ermənistan üçün də mesaj olmalıdır. Çünki regional əməkdaşlığın ən mühüm seqmenti və effektivlik vahidi Zəngəzur dəhlizidir. O dəhliz ki, ideyası Azərbaycan tərəfindən irəli sürülüb və Naxçıvana maneəsiz – heç bir gömrük və sərhəd yoxlanışı olmayan yolu nəzərdə tutur. O dəhliz ki, ondan həm İrəvanın, həm də Tehranın bəhrələnməsi mümkündür. Tam aydındır ki, dəhliz olmasa, nə Ermənistanın, nə də İranın "yarası sağalacacaq". Ölkələrin hər ikisinin təcriddən qurtuluşu məhz Zəngəzur dəhlizindən keçir. Qalır bu həqiqəti dərk edib reallıqla barışmaq.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Sülh yoluna "daş qoyanlar"

## *Barışı təhdid kimi göstərənlərin məqsədi nədir?*

**Azərbaycanın, guya, Ermənistana hücum edəcəyi, yaxud etməyə hazırlaşdığı ilə bağlı fikirlər son illər bu ölkədə gündəmdən düşmək bilmir. Bu fikirlərin heç bir əsasının olmadığı, dezinformasiya xarakteri daşıdığı çoxdan sübut edilsə də, yenə də bəzi şəxslər, xüsusilə revanşist dairələr məlum iddiaları tirajlamaqda israrlıdırlar. Onların məqsədi həm ölkə daxilində qorxu atmosferi yaratmaq, həm də beynəlxalq ictimaiyyəti çaşdırmaqdır. Belə saxta təbliğat müəyyən dairələrin əlində Ermənistanın daxili siyasi gündəmini öz maraqları istiqamətində yönləndirmək üçün bir vasitəyə çevrilib.**

Ermənistan və Azərbaycan arasında İkinci Qarabağ müharibəsinin başa çatmasını rəsmiləşdirən 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli bəyanatda bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpa edilməsinə dair bəndin yer alması, bundan sonra Zəngəzur dəhlizi ideyasının reallaşmasına doğru atılan addımlar, eyni zamanda, Qərbi azərbaycanlıların dinc şəkildə öz yurd-yuvalarına qayıtmaları istiqamətində görülən işlər revanşist ekspertlər tərəfindən fərqli şəkildə təqdim olunur. Halbuki Azərbaycan tərəfi bizim Ermənistan ərazisində gözümüzün olmadığını dəfələrlə yüksək səviyyədə bəyan edib. Sonuncu dəfə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Almaniyanın aparıcı nəşrlərindən olan "Berliner Zeitung" qəzetinə müsahibəsində Cənubi Qafqazda real sülhə nail olunduğunu vurğulayıb.

H.Hacıyev hazırda Ermənistanla Azərbaycan arasında hərbi qarşıdurma və ya eskalasiyanın gündəmdə olmadığını qeyd edib. O, hələ də bəzi fikir ayrılıqlarının mövcudluğunu və bunların aradan qaldırılması üçün dialoqun davam etdirildiyini bildirib. Verilən bu bəyanatlara baxmayaraq, qarşı tərəfdəki bəzi şəxslər eyni isterik düşüncələrdən əl çəkmək bilmirlər. Belələrindən biri də Ermənistan hərbi-sənaye komitəsinin sabiq sədri, "Hayakve" müxalifət hərəkatı şurasının üzvü Avetik Kerobyandır.

O, bugünlərdə "Nyus.am"a müsahibəsində "müharibə təhlükəsinin həmişə mövcud olduğunu" bildirib. Qeyd edib ki, hazırkı hakimiyyət hər cür bəyanatlar verir və müxtəlif piar kampaniyaları aparır, cəmiyyətə orduda ciddi islahatların aparıldığını göstərməyə çalışır: çavuş sistemi tətbiq olunur, müxtəlif ölkələrdən müşavirlər gətirilir, irimiqyaslı silah alışı aparılır və sair. Lakin onun sözlərinə görə, 2020-ci il müharibəsi göstərdi ki, problemi təkcə ordu həll edə bilməz. Müharibə başlayanda isə yalnız silahlı qüvvələr deyil, bütün cəmiyyət savaşda dövlətlə birgə, harmonik



və vahid iradə ilə iştirak etməlidir.

Daha sonra Azərbaycanı və Türkiyəni erməni toplumuna "xoxan" kimi təqdim edən Kerobyan deyib ki, türklərlə dinc yanaşı yaşamaq Ermənistanın həqiqətən müharibəyə hazır olduğu zaman mümkündür. Guya, yalnız bu şərtlə Türkiyə ilə hansısa davamlı birgəyaşayışdan danışmaq olar: "Axı Türkiyənin qonşuları – Suriya, Yunanıstan, İran və İraqla münasibətlərinə nəzər salsanız, görərsiniz ki, o, çoxdan İraqın şimalına qeyri-qanuni müdaxilə edib və oradan çıxmayacağını açıq şəkildə bəyan edir. Eyni şey Suriyanın şimalına da aiddir – Türkiyə bu əraziləri də tərk etmək niyyətində deyil. Bundan əlavə, o, Yunanıstanın ərazi bütövlüyünü mütəmadi olaraq pozur və Kiprdən çıxmaq fikrində deyil".

Kerobyan iddia edib ki, Türkiyənin istəyinin sülh deyil, ermənilərin daha bu torpaqda yaşamaması olduğunu anlamaq lazımdır. "Üstəlik, türklər öz niyyətlərində kifayət qədər dürüstdürlər – bunu daim və açıq şəkildə bəyan edirlər" - deyən başabəla ekspert qeyd edib ki, eyni sözlər Azərbaycan Respublikasına da aiddir. O, belə bir fikir bildirib ki, Zəngəzur dəhlizi ətrafında baş verən bütün ritorika erməniləri və Ermənistanı aldatmaq, iqtisadi səmərə ilə bağlı yalan fikirlər aşılamaqdır. Guya, Türkiyə əvvəlcə Zəngəzuru, sonra isə Kotaykı, Araqatsotnu və Şirakı tutmağa çalışır, tədricən ölkənin dərinliklərinə doğru irəliləyir.

*

Əlbəttə, özünü ekspert kimi təqdim edən, əslində isə Ermənistan cəmiyyətində qorxu və çaşqınlıq toxumu səpmək üzrə ixtisaslaşmış Kerobyanın bu çıxışı onun Azərbaycan və Türkiyəyə qarşı ictimai şüuru hər fürsətdə zəhərləməyə çalışmasının göstəricisidir. O, reallıqdan tamamilə uzaq, təhlükəli və məsuliyyətsiz iddialarla sanki Ermənistan əhalisini növbəti böhrana psixoloji cəhətdən hazırlamağa cəhd edir. Kerobyan müharibə təhlükəsinin həmişə mövcud olduğunu deyərək, cəmiyyətdə süni panika yaratmağa çalışır. Sonra isə hökumətin, guya, ordunu modernləşdirmək adı altında görüntü yaratdığını vurğulayır.

Bununla həm hakimiyyətin legitimliyinə xələl gətirir, həm də orduda aparılan islahatları gözdən salır. Burada maraqlı məqam odur ki, Kerobyan konkret fakt və arqumentlərlə danışmır. O, daha çox fərziyyələrə əsaslanaraq "təhlükəli düşmən" obrazı yaradır. İddia edir ki, türklərlə dinc yanaşı yaşamaq yalnız Ermənistan tam şəkildə müharibəyə hazır olduqda mümkündür. Bu fikrin arxasında heç bir məntiq dayanmır. Çünki sülh yalnız müharibəyə hazır olanda deyil, qarşılıqlı etimad, beynəlxalq hüquq normaları və siyasi iradə vasitəsilə təmin edilir. Bu, hay cəmiyyətinə "qarşı tərəfə güvənmək olmaz" mesajından başqa bir şey deyil.

Onun Türkiyə ilə bağlı fikirləri isə daha geniş dezinformasiya xarakteri daşıyır. Suriyada, İraqda və Şimali Kiprdəki prosesləri kontekstdən çıxararaq təhrif edir, geosiyasi reallıqları ümumiləşdirilmiş və emosional formada çatdırır. Ən təhlükəlisi isə budur ki, Kerobyan bu "analizləri" ilə Ermənistanı təcrid olunmuş və əhatəyə alınmış ölkə kimi göstərməyə çalışır. Beləliklə, əhali öz qonşularını düşmən, öz dövlətini isə yalqız buraxılmış kimi qavrayır. Əgər Kerobyanda azacıq rasional yanaşma olsaydı, başa düşərdi ki, bu, uzunmüddətli perspektivdə sosial parçalanma və dövlətçilik institutlarına inamsızlıq yaradır.

Hərbi–sənaye komitəsinin sabiq sədri Zəngəzur dəhlizi ilə bağlı da təhrif olunmuş fikirlər formalaşdırmağa çalışır. İddia edir ki, bu layihə yalnız erməniləri aldatmaq üçün uydurulmuş iqtisadi oyundur. Guya, dəhliz vasitəsilə əvvəlcə Ermənistanın cənub bölgəsi, daha sonra digər vilayətləri zəbt olunacaq. Bu düşüncə, təəssüf ki, faktlardan yox, paranoyadan doğur. Regionda nə Azərbaycan, nə də Türkiyə Ermənistana qarşı hərbi ekspansiya planlaşdırır. Əksinə, hər iki ölkə əməkdaşlıq və inteqrasiya çağırışları edir. Ancaq Kerobyan kimi fiqurlar bu çağırışları cəmiyyətə təhlükə kimi təqdim edərək, gələcək inkişaf imkanlarını baltalayırlar.

Onu da bildirək ki, bu cür çıxışların motivi çox vaxt daxili siyasi ambisiyalarla bağlı olur. Onlar ya hakimiyyətin mövqelərini zəiflətmək, ya da revanşist dairələrə xidmət göstərmək üçün qorxu, təlaş üzərindən mövqe qazanmağa çalışırlar. Amma bunun əvəzini Ermənistan cəmiyyəti ödəyir. Nəticədə hayların gələcəyinə inam azaldılır, əməkdaşlığa olan ümid boğulur, əhalinin informasiya ilə davranışı zədələnir. Ən pisi isə odur ki, bu iddialar beynəlxalq platformalarda da yayılır və Ermənistanın siyasi iradəsini qeyri-ciddi göstərir. Bu mənada Kerobyanın və onun kimi radikal revanşistlərin çıxışları təkcə fərdi fikir deyil, planlı psixoloji basqı mexanizmidir. Ermənistan cəmiyyəti bu kimi çıxışlara alət olmamalıdır. Əksinə, haylar belələrini "iqnor" etməlidirlər. Onlar regionda real təhlükənin haradan gəldiyini düzgün qiymətləndirərək həm təhlükəsizliyini təmin etməli, həm də qarşılıqlı əlaqələr üçün sağlam zəmin formalaşdırmalıdırlar. Əks halda cəmiyyətin üzləşəcəyi əsas təhdid hansısa "xarici müdaxilədən" deyil, daxildən yayılan saxta təsəvvürlərdən qaynaqlanacaq.

Birmənalı şəkildə demək mümkündür ki, Kerobyanın dedikləri Ermənistanın gələcək inkişafına xidmət etmir. Əksinə, bu cür fikirlər cəmiyyəti keçmişdə ilişib qalmağa vadar edir. Halbuki bu gün Ermənistan üçün əsas prioritet sabitlik, iqtisadi dirçəliş və regional layihələrə qoşulmaqdır. Qonşularla düşmənçilik siyasəti davam etsə, ölkə daha da təcrid olunacaq. Ermənistanın gələcəyi qorxu deyil, qarşılıqlı maraqlar üzərində qurulmalıdır. Cəmiyyət bu tip ritorikaları ayırd etməyi bacarmalı və öz rifahını düşünməlidir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Ramiyə MƏMMƏDOVA,**
**politoloq**

– Bu cür çıxışlar Ermənistan cəmiyyətində çaşqınlıq yaratmaq məqsədi daşıyır. Onlar Azərbaycan və Türkiyəni təhdid kimi təqdim etməyə çalışırlar. Halbuki bu fikirlər reallığa uyğun deyil. Bakı və Ankaranın bölgədə əsas məqsədi sülh, sabitlik və əməkdaşlıqdır. Kerobyan kimilər isə süni qorxu yaratmaqla bu dəyərlərə qarşı çıxırlar.

Bu şəxsin Zəngəzur dəhlizi ilə bağlı dedikləri isə tamamilə əsassızdır. O, bu layihəni təcavüz planı kimi təqdim edir. Halbuki dəhlizin region üçün iqtisadi imkanlar yarada biləcəyi hamı tərəfindən etiraf olunur. O cümlədən bundan Ermənistanın da faydalanacağı şübhəsizdir. Amma belə çıxışlar bu fürsətlərin qarşısını alır. Kerobyanın Türkiyə ilə bağlı söylədikləri də birtərəfli, qərəzli və emosionaldır. O, regional prosesləri təhrif, faktları yanlış təqdim edir. Bu isə ictimai fikri çaşdırır və dialoqa mane olur. Ermənistan bu cür yanaşmalardan uzaq durmalıdır. Reallıq budur ki, bölgənin gələcəyi əməkdaşlıqdan keçir. Ermənistan cəmiyyəti gərginlik yox, qarşılıqlı anlaşma yolu seçməlidir. Belə çıxışlar isə bu yola daş qoyur. Əslində, Ermənistan dövləti və xalqı üçün Türkiyə və Azərbaycan deyil, belə fikirlər təhlükəlidir.

# 31 iyul 1997-ci il: Azərbaycan Olimpiya hərəkatında dönüş günü

**Bu gün, 2025-ci il iyulun 31-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin ölkəmizin olimpiya hərəkatına rəhbərliyinin 28-ci ili tamam olur.**

Azərbaycan olimpiya hərəkatında yeni dövrə 1997-ci il iyulun 31-də start verilib. Məhz həmin gün respublika Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin iclasında İlham Əliyev yekdilliklə MOK prezidenti seçilib. Bununla da ölkəmizdə olimpiya hərəkatı növbəti mərhələyə qədəm qoyub.

Tezliklə respublikamızın beynəlxalq idman dairələrində nüfuzu daha da artmağa başladı. Artıq 2000-ci illərin əvvəlində Azərbaycan Milli Olimpiya Komitəsi ümumdünya olimpiyaçılar ailəsinin ən hörmətli üzvlərindən birinə çevrilib, başqalarına nümumə kimi göstərildi.

Bu, təsadüfi deyildi. Yeni seçilmiş MOK prezidentinin ölkə olimpiya hərəkatının rəhbəri kimi fəaliyyətə başladığı elə ilk günlərdən bütün idman təşkilatlarımızla birlikdə, vahid komanda şəklində həyata keçirilən təsirli tədbirlər sayəsində paytaxt Bakı ilə yanaşı, ayrı-ayrı şəhər və rayonlarımızda da idman işləri geniş vüsət aldı, çoxsaylı və yaraşıqlı olimpiya-idman mərkəzləri gənclərin istifadəsinə verildi.

İndi Azərbaycanın qonağı olan minlərlə xarici ölkə idmançısı Bakı Olimpiya Stadionu, Heydər Əliyev İdman Sarayı, Tofiq Bəhramov adına Respublika Stadionu, Milli Gimnastika Arenası, Kristal Zal, Su İdmanı Sarayı və digər əzəmətli yarış meydanlarında onlar üçün yaradılan ideal şəraitdə medallar uğrunda kəskin rəqabətdən zövq alır, təşkilatçıların ünvanına xoş sözlər söyləyir, mübarizə meydanında çıxışlarını başa vurduqdan sonra isə ölkələrinə Azərbaycan haqqında zəngin təəssüratla qayıdırlar.

Bu da onun təsdiqidir ki, həqiqətən, artıq 2000-ci illərdən respublikamız əsl idman ölkəsinə çevrilmiş və beynəlxalq olimpiya hərəkatında onun nüfuzu durmadan artır. Xatırlayaq: Beynəlxalq Olimpiya Komitəsinin o illərdəki prezidenti Jak Roqq çıxışlarından birində İlham Əliyevə müraciətlə demişdi ki, Azərbaycan Milli Olimpiya Komitəsinin fəaliyyəti keçmiş sovet məkanında yaradılmış bütün milli olimpiya komitələri üçün bir nümunədir. Avropada məndən bu məkanda olimpiya hərəkatının inkişafı barədə soruşanda böyük məmnuniyyətlə Sizin ölkənizi misal göstərirəm.

Azərbaycan Milli Olimpiya Komitəsi İlham Əliyevin rəhbərliyi ilə öz tarixinə yeni-yeni parlaq səhifələr yazdığı dövrün artıq 7-ci ilində, 2004-cü ildə MOK prezidentinin ali mükafata—Beynəlxalq Olimpiya Komitəsinin Olimpiya ordeninə layiq görülməsi də olimpiya hərəkatımıza ən yüksək səviyyədə verilən dəyərin nəticəsi idi. Bütün Azərbaycan idmanı üçün bu qürurverici hadisənin olimpiya ilində, üstəlik də, müasir Olimpiya oyunlarının vətəni Yunanıstanın (biz də əbədi olaraq Azərbaycanın Avropa Oyunlarının vətəni olması ilə fəxr edəcəyik—O.B.) paytaxtı Afinada baş verməsi isə ona xüsusi məna verirdi.

Həmin gündən artıq 21 il ötür. Onda, 2004-cü ilin mart ayında BOK-un rəhbər şəxsləri Azərbaycan dövlətinin başçısı,



Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyevin ümumdünya olimpiya hərəkatında böyük xidmətlərinə görə ali mükafatla təltif olunması barədə yekdilliklə qərar qəbul edəndə Afina növbəti Olimpiya oyunları iştirakçılarını qəbul etməyə hazırlaşırdı. Azərbaycan dövləti və idmanının liderinin belə əlamətdar günlərdə ali mükafata layiq görülməsi dərin rəmzi məna daşıyırdı.

Yunanıstan paytaxtında Olimpiadadan ötən müddət ərzində də Azərbaycan idmanı inkişaf yolunda bir an belə dayanmayaraq, sürəti daha da artırıb. İstər böyüklər, istərsə də gənclər və yeniyetmələr arasında keçirilən dünya və Avropa çempionatlarında, digər mötəbər beynəlxalq yarışlarda qazanılmış saysız-hesabsız medallar idmanımızın qüdrətinin təntənəsidir. Olimpiya oyunlarında uğurlarımız da öz yerində.

Burada bir məqamı xatırlatmaq istərdik ki, Azərbaycan idmanının ən görkəmli yetirmələrindən stend atıcısı Zemfira Meftahətdinova ilə sərbəst güləş ustası Namiq Abdullayevin 2000-ci ilin sentyabrında uzaq Avstraliyanın Sidney şəhərində keçirilmiş XXVII Olimpiya Oyunlarında müstəqil Azərbaycan Respublikasına qazandırdıqları qızıl medalların, boksçu Vüqar Ələkbərovun isə bürünc mükafatının tezliklə 25 yaşı tamam olacaq.

Həmin medallara ən çox sevinən isə bu gün düz 28 ildir ki, ölkəmizdə olimpiya hərəkatına rəhbərlik edib, idmanımızı zəfərdən-zəfərə aparan olimpiyaçılar komandamızın dünya şöhrətli lideri, Olimpiya ordenli İlham Əliyev olub.

Bir də ki, Zemfira, Namiq və Vüqarın Sidney medalları Azərbaycan olimpiyaçılar komandasını 199 ölkə arasında 34-cü yerə çıxarmışdı. Medalçı dövlətlərin siyahısında 165 ölkə Azərbaycandan geri qalmışdı…

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

# “Qapalı dairə”dən çıxmağın vaxtı çatıb

## *Düşmənçilikdən yorulmuş erməni cəmiyyətinin psixoloji reabilitasiyaya ehtiyacı var*

**Münaqişə cəmiyyətlərin yaddaşında, dəyərlərində, psixologiyasında iz qoyur. Ermənistan kimi uzun illər özünü “müharibə şəraitində olan millət” kimi identifikasiya edən bir ölkədə sülh əvvəlcə ictimai rəyə, sonra isə siyasi qərarvermə mexanizminə sirayət edir. Amerikanın Beynəlxalq Respublikaçı İnstitutu (IRI) tərəfindən iyun ayında keçirilən sorğunun nəticələri göstərdi ki, Ermənistan cəmiyyətində sülhə doğru meyil formalaşır və bu meyil, görünənin əksinə olaraq, həm kəmiyyət, həm də keyfiyyət baxımından ciddi nəzərə alınmalı bir tendensiyadır.**



Sorğuda iştirak edən 1505 nəfər Ermənistan vətəndaşının cavabları onların ölkənin gələcəyi, siyasi liderlərə münasibəti və Azərbaycanla sülh məsələsinə baxışlarını üzə çıxardı. Ən mühüm məqamlardan biri ondan ibarətdir ki, Ermənistan cəmiyyətində sülh tərəfdarlarının az qala yarıdan çoxunu təşkil edən, lakin siyasi sistem tərəfindən yetərincə tanınmayan bir sosial



baza mövcuddur. Bu zümrə, əsasən, yaşlı nəslin nümayəndələridir. Onlar münaqişənin real fəsadlarını bədənlərində və həyat tarixçələrində daşıyıblar. Müharibənin iqtisadi, sosial və mənəvi yüklərini görmüş bu nəslin 58 faizi Azərbaycanla sülh müqaviləsini dəstəklədiyini bəyan edib.

Sözügedən qrupun siyasi və psixoloji əhəmiyyəti ondadır ki, onlar yalnız sülhə deyil, həm də kompromisə meyillidirlər. Bu isə o deməkdir ki, onlar Ermənistanın real vəziyyətini anlayır, riskləri və nəticələri qiymətləndirməyi bacarırlar. Həmin nəsil 1990-cı illərin başlanğıcındakı müharibəni, iqtisadi blokadanı, sistemin çökməsini, aclığı, enerjisizlik dövrünü xatırlayır. Onların sülh çağırışına səsi bu səbəbdən instinktiv deyil, rasionaldır. Onlar emosional revanşist çağırışların hansı faciələrlə nəticələndiyini ya öz gözləri ilə görüblər, ya da bu yükü daşıyıblar. Ona görə də Paşinyanın danışıqlara əsaslanan siyasi kursunu dəstəkləməyə hazır olan ən real və dayanıqlı sosial dayaqlardan biri də elə budur.

Daha önəmlisi budur ki, bu sülhyönlü ictimai qrup Ermənistanın bütün coğrafi bölgələrində, fərqli sosial təbəqələrdə təmsil olunur. Onlar nə siyasi ritorikanın qurbanıdır, nə də keçmişin siyasi aktyorlarının manipulyasiyasına açıqdır. Məhz bu kütlə öz səssiz mövqeyi ilə Ermənistanın gələcəyi üçün rasionallığın hələ də itirilmədiyini göstərir. Məhz sülh istəyənlər – yaşlılar, praqmatiklər, regional sabitliyi və iqtisadi rifahı önə çəkənlər – Azərbaycanın təqdim etdiyi sülh müqaviləsinə ən rasional baxan qrupdur. Lakin bu zümrə təşkilatlanmayıb, təmsil olunmur və siyasi diskursda sanki mövcud deyil. Onların səsi nə küçə aksiyalarında eşidilir, nə də parlament kürsülərində əks olunur. Amma onlar var – və məhz onların varlığı Ermənistan cəmiyyətinin tamamilə itirilmədiyini, hələ də sülh üçün içdən gələn rasional bir ehtiyacın yaşadığını sübut edir.

### Revanşizmin təhlükəli cazibəsi

Ermənistan cəmiyyətində sülhə rasional yanaşan bir təbəqənin mövcudluğu nə qədər aydın görünürsə, bu rasional mövqeyin qarşısında ideoloji qeyri-müəyyənlik içində sürüklənən digər zümrə də bir o qədər narahatedici konturlarla ortaya çıxır. Bu zümrə – gənclik – Ermənistanda həm sosial baxımdan dinamik, həm də siyasi baxımdan təmsil olunmamış kütlə olaraq mövcuddur. Onlar nə iqtidarın daşıyıcısıdır, nə də keçmiş avtoritar sistemin tərəfdarları. Amma məhz bu “əlaqəsizlik” onları ideoloji vakuumun içində qoyur və bəzən təhlükəli diskurslara açıq hala gətirir.

IRI sorğusunun nəticələrinə görə, 18–35 yaşlı respondentlərin yalnız 38 faizi Azərbaycanla sülh sazişini dəstəklədiyini bildirib. Göstəricilər yaşlı nəslə (58 faiz) nəzərən nəzərəçarpacaq dərəcədə azdır. Ən düşündürücü məqam isə bu yaş qrupunun 48 faizinin açıq şəkildə sülh müqaviləsinə qarşı olduğunu ifadə etməsidir. Statistika Ermənistanın gələcək siyasi və sosial kursuna təsir edəcək əsas faktorlardan birini ortaya qoyur: gənclik ya barışa inanmır, ya da onu təslimçilik kimi görür. Baxış tərzi təsadüfi deyil. Ermənistan cəmiyyətində illərdir formalaşan milli ideologiyanın mərkəzində “tarixi ədalətin bərpası” adlı siyasi instrumental xarakterli bir anlayış dayanır. Məktəbdən universitetə, mediyadan mədəniyyət institutlarına qədər bu fikir gəncliyə təlqin olunub: Ermənistan daim zərər çəkib, daim haqsızlığa məruz qalıb və bu haqsızlığın düzəlməsi yalnız “böyük dönüş”, yəni “haqqın alınması” ilə mümkündür. İdeoloji təməl üzərində qurulan kollektiv kimlik modeli Ermənistan gəncliyini regional reallıqlardan ayırıb mifoloji gözləntilərlə yükləyib. Elə bu səbəbdəndir ki, Azərbaycanla sülh – yəni geosiyasi kompromis – bu mifologiyada “təslim olma” kimi qavranılır.

Ermənistanın gəncliyi bu gün həm informasiya partlayışının, həm də siyasi təmsil çatışmazlığının içindədir. Onlar internet vasitəsilə dünyaya açılır, Qərb siyasi dəyərlərinə maraq göstərirlər, amma bu maraq tez-tez radikallaşmış emosional narazılıqla qarışır. Onların gözündə mövcud siyasi sistem – istər Paşinyan, istər Koçaryan – köhnə və qeyri-səmimi görünür. Amma bu sistemdən çıxış alternativi də yoxdur. Bütün bunlar isə onları ya apatiyaya, ya da populist, revanşist ritorikalara açıq hala gətirir. Səssiz narazılıq getdikcə potensial etiraz enerjisinə çevrilir və bu enerji hələlik heç bir sabit struktura kanalizasiya olunmayıb.

Burada Paşinyanın layihəsi ciddi bir paradoksla üz-üzə qalır. O, gəncliyi müasir Ermənistanın əsas dayağı kimi görür, amma bu gənclik artıq onun ən böyük problemlərindən birinə çevrilib. Çünki bu zümrə nə qərbyönlü dəyərlərə səmimi şəkildə bağlıdır, nə də milli ideologiyanın yeni reallıqlara uyğunlaşdırılmış versiyasını qəbul edir. Onlar arasında revanşist çağırışlara meyl edənlər də var, qərbyönlü, lakin radikal dəyişiklik istəyənlər də. Onların ortaq cəhəti – sistemdən narazılıq və siyasi alternativsizliyin doğurduğu frustrasiyadır. Gənclərin sülhə qarşı skeptik yanaşması və revanşizmə açıq olmaları fonunda Azərbaycanın qaldırdığı əsas tələblər – Ermənistan konstitusiyasının dəyişdirilməsi və ərazi iddialarından tam imtina - preventiv təhlükəsizlik tədbiri kimi dəyərləndirilə bilər. Yəni, Ermənistan daxilində potensial radikalizmin qarşısı hüquqi mexanizmlərlə alınmalıdır.

### Siyasi alternativsizlik vakuumu

Ermənistan cəmiyyətindəki psixoloji dağınıqlığın və sülhə münasibətdə müşahidə olunan ikiləşmənin arxa planında daha fundamental bir böhran durur: legitimlik böhranı. IRI-nin iyun ayında keçirdiyi sorğunun nəticələrindən biri odur ki, respondentlərin 61 faizi heç bir siyasi liderə etimad etmədiyini bildirib. Sual yaranır: bir cəmiyyətin üçdə ikisinə yaxını özünü heç bir siyasi aktorla identifikasiya etmirsə, bu, necə idarə olunur və hansı istiqamətə yönələ bilər? Sorğu nəticəsi göstərir ki, Ermənistan siyasəti yalnız ideoloji parçalanma ilə deyil, eyni zamanda institusional boşluqla da üz-üzədir. Nə Paşinyanın reformist ritorikası, nə də müxalifət düşərgəsinin populist-millətçi çağırışları bu inamsızlıq divarını aşa bilib.

Boşluq isə sülh gündəmi üçün ən ciddi təhlükələrdən biridir. Çünki istənilən diplomatik razılaşmanın həyata keçirilməsi üçün onun arxasında daxili legitimlik dayanmalıdır. Hakimiyyətin verdiyi qərarlar ictimai şüurda mənəvi və hüquqi əsasla qəbul edilmirsə, bu qərarlar ya passiv müqavimətlə, ya da açıq etirazla qarşılanır. Ermənistan hökumətinin Azərbaycanla sülh prosesini irəli aparmaq cəhdləri də məhz bu səbəbdən siyasi baxımdan təhlükəli zonaya daxil olur: tərəfdaşlığa çalışdığı beynəlxalq aktorlar qarşısında öhdəlik götürən bir iqtidar, arxasında güvənilən ictimai dayaq olmadığı üçün sanki havada qalır.

Belə etimadsızlıq həm də müxalifətin siyasi kapitalını tükədir. Koçaryan və digər “keçmiş” fiqurların topladığı rəqəmlər ( 4 faiz, 2 faiz, 1 faiz) Ermənistan cəmiyyətinin keçmişdən əl çəkdiyini göstərir. Amma bu, gələcəyə inam anlamına da gəlmir. Bütün bu mənzərə kontekstində sülh gündəmi qeyri-sabit platformada qalır. O, nə daxili siyasi konsensusa əsaslanır, nə də ictimai legitimlik daşıyır. Məhz buna görə də Azərbaycan bu reallığı nəzərə alaraq, sülh sazişinin davamlılığı üçün institusional təminatlar tələb edir – xüsusilə də Ermənistan konstitusiyasında dəyişiklik və Azərbaycana qarşı ərazi iddialarının hüquqi baxımdan ləğvi. Çünki əgər Ermənistan cəmiyyətində bu dərəcədə etimadsızlıq hökm sürürsə, sabah sülhü pozacaq siyasi qüvvələrin yenidən səhnəyə çıxması ehtimalı realdır. Belə bir durumda yalnız beynəlxalq hüquqla sanksiyalaşdırılmış konstitusiya dəyişiklikləri gələcək pozuntuların qarşısını ala bilər.

Azərbaycan bu prosesi diqqətlə müşahidə edir. Rəsmi Bakı üçün bu inamsızlıq mühiti sülh prosesinə əlavə hüquqi təminatların zəruriliyini əsaslandırmaq üçün əla arqumentdir. Ermənistan cəmiyyətindəki siyasi alternativsizliyin dərinləşməsi fonunda, Azərbaycan mövcud reallıqları beynəlxalq ictimaiyyət qarşısında rasional izah edə və sülh prosesini hüquqi çərçivəyə salmaqla davamlılıq qura bilər.

Cəmiyyətin “qapalı dairədə” fırlanmasının ən dərin səbəbi Ermənistanın öz gələcəyinə dair təsəvvür böhranıdır. Bu ölkənin cəmiyyəti uzun illər “müharibə içində olan xalq” identifikasiyası ilə yaşayıb. İndi isə sülh ona yalnız məğlubiyyətin sinonimi kimi görünür. Belə bir şəraitdə Azərbaycan üçün yaranan məsələ sülhü davamlı və dayanıqlı şəkildə təmin etməkdir. Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistan konstitusiyasının dəyişdirilməsi tələbi, həm hüquqi, həm də psixoloji cəhətdən bu məqsədə xidmət edir. Tələb ərazi iddialarına son qoymaqla yanaşı, Ermənistan cəmiyyətində yeni bir siyasi və hüquqi reallığın formalaşmasına imkan yaradır.

Beləliklə, “qapalı dairədə” fırlanan bir cəmiyyətin reallıqları ilə üz-üzə qalan Azərbaycan sülhü strukturlaşdırır, sülhü hüquqla qorumağa çalışır, sülhü gələcəyin siyasi qeyri-müəyyənliyindən çıxarıb, sabitliyin təminatına çevirməyə çalışır. Azərbaycanın qarşısında duran vəzifə sabit regional arxitektura qurmaq və bu arxitekturanı təzyiqlərdən qorumaqdır. Sülh yalnız imzalanmamalıdır – o, həm də müdafiə olunmalıdır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Doğru yol ortaq maraqlardan keçir

## *“Qaranlıq otaqda qara pişik axtaranlar”, nədənsə, bu həqiqəti anlamırlar*



**Rusiya Dövlət Dumasının MDB işləri üzrə komitəsi sədrinin birinci müavini Konstantin Zatulini tutduğu vəzifəyə görə boynuna düşən vəzifəsinin icrasından daha önəmli missiyası var. Haypərəstliyi “fontan” vuran bu personaj “Lenta.ru” saytına müsahibəsində bir daha antiazərbaycan bəyanatları ilə fərqlənməyi “bacarıb”. “Azərbaycandan Ukraynaya qaz nəqlinin Kiyevə açıq dəstək olduğunu” bəyan edən Zatulinin sözlərinə görə, Bakıda bu addımı çoxvektorlu siyasət adlandırsalar da, reallıqda “getdikcə Rusiyanın maraqlarından uzaqlaşır”.**

Qarşımızda bir sıra ölkələrə, o cümlədən Azərbaycana, hətta Ermənistana girişinə veto qoyulmuş personajın primitiv təfəkkürünün və siyasi korafəhmliyinin daha bir nümunəsi var. Dumada MDB məsələləri ilə məşğul olan deputatın Azərbaycan ərazilərini 30 il işğalda saxlayan Ermənistanda belə “persona non-qrata” elan edilməsi maraqlı versiyalara yol açır. Axı, 2020-ci il müharibəsinə qədər İrəvana, Xankəndinə tez-tez baş çəkən Zatulini centlmen kimi qarşılayıb yola salırdılar.

Belə görünür ki, “sevimli” ölkəsi Ermənistana giriş qadağası K.Zatulinin sinir sistemini o dərəcədə ciddi zədələyib ki, Azərbaycanın müstəqil dövlət olduğu və xarici siyasət addımlarını Rusiya ilə razılaşdırmağa ehtiyac duymadığı faktını yaddaşından tamamilə silib. Bu məqamda Dövlət Dumasının MDB işləri üzrə komitəsinin sədrinə Azərbaycanın KTMT-nin, Avrasiya İqtisadi İttifaqının, İttifaq dövlətinin üzvü olmadığını xatırlatmağa lüzum varmı? Ən azı, bu siyasi reallığı bilən kəs Bakının “Rusiyanın maraqlarından uzaqlaşması” iddiasını dilinə gətirməməlidir. Çünki bu iddia siyasi məntiqə görə də absurd sayılır. İki gün sonra Azərbaycan təbii qazının Türkiyə vasitəsilə Suriyaya tədarükünə başlanacaq. Bəlkə Bakı bunun üçün də Moskvanın “xeyir-duasını” almalıdır?

**Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru, politoloq Fərhad Məmmədov diqqəti məsələnin məhz iqtisadi aspektinə yönəltdi:** “Hələ on beş il bundan əvvəl Azərbaycanda yeni qaz yataqları aşkar ediləndən və buna Avropa ölkələri tərəfindən maraq göstəriləndən sonra bu mövzu ətrafında kənar spekulyasiyalar müşahidə olunurdu. Vaxtilə Nabukko kəməri ilə Cənub Qaz Dəhlizi arasında seçim aparılarkən məsələ pik həddinə çatdı. Bununla bağlı Azərbaycanın mövqeyi həmişə sabit və dəyişməz olub. Prezident İlham Əliyev qaz ixracının siyasi məsələ olmadığını dəfələrlə bəyan edib. Yəni, bu, ilk növbədə iqtisadi məsələdir. O zaman Nabukko-nun sonuncu nöqtəsi Avstriya idi. Çünki Avropanın ən böyük qazpaylayıcı şəbəkəsi məhz Avstriyada mövcuddur və buradan qitənin hər tərəfinə qazın nəqli mümkündür. Amma məsələyə maddi maraq nöqteyi-nəzərindən yanaşanda, Mərkəzi Avropa ölkələri üçün ənənəvi bazar Rusiya hesab olunurdu. Bu bazara digər mənbədən qaz daxil olanda, təbii ki, həcm artır, qiymət isə aşağı düşür. Buna görə bu layihəyə siyasi baxışlar da yox deyildi. Bakı məhz bu səbəbdən sərfəli bazardan imtina edib, Rusiyanın olmadığı Cənubi Avropa ölkələrinə üz tutdu”.



Azərbaycanın məhz iqtisadi maraqlarını əsas tutaraq, “Qazprom”un olmadığı coğrafiyaya yol tapdığını vurğulayan politoloq bu məqsədlə Cənub Qaz Dəhlizini inşa etdiyini bildirdi: “Aydın məsələdir ki, Azərbaycanın bu seçimi Avropa bazarında qazın qiymətinə təsir göstərmirdi. Hazırda bizim qazımıza Rusiyadan “mavi yanacağ”ın alışını dayandıran Mərkəzi Avropa ölkələrində böyük ehtiyac var. Yəni, Rusiya məlum səbəbdən bu bazardan çəkiləndən sonra Azərbaycan qazı ora daxil olub. Zatulin bilməmiş deyil ki, Ukrayna bu ilin əvvəlindən Rusiyadan qazın alınmasını və ərazisindən nəqlini qadağan edib. İkinci məqam isə odur ki, keçən il Moskva özü Bakıdan xahiş etmişdi ki, öz ərazisindən Ukraynaya qaz nəql etsin. Rusiya hətta bu yolla qazın satişində maraqlı idi. Son vaxtlar iki ölkə arasında münasibətlərin soyuması heç də o demək deyil ki, Azərbaycan hansısa bazarda Rusiya ilə rəqabətə girib”.

*

Ümumiyyətlə, normal strateji düşüncəyə malik hər kəs çoxdan başa düşüb ki, rəsmi Bakı xarici siyasətində müstəsna olaraq milli maraqlardan çıxış edir. Əgər Azərbaycan üçün Avropaya və ya Ukraynaya qaz satmaq sərfəlidirsə, bunu edəcək. Burada söhbət nə dostluqdan, nə də düşmənçilikdən gedir. Bu, praqmatizmə və geosiyasi hesablamaya əsaslanan suveren seçim məsələsidir. Yeri gəlmişkən, qeyd edək ki, Zatulin çoxvektorlu siyasətqdan neqativ bir təmayül kimi danışır. Baxmayaraq ki, əslində bu, ayaq üstə möhkəm duran və öz maraqlarını müdafiə etməyə qadir dövlətlərin siyasi müstəqilliyinin real göstəricisidir.

**Siyasi icmalçı Tofiq Abbasov mövzu ilə bağlı XQ-yə** açıqlamasında bildirdi ki,



Rusiyada Konstantin Zatulin kimi düşünən xəstələr az deyil: “Bu adamlara hələ də elə gəlir ki, Azərbaycan və postsovet məkanındakı digər müstəqil dövlətlər Rusiyanın müstəmləkəsi olaraq qalmaqdadır. Əslində, onlar reallıqdan ya uzaqlaşıblar, ya da onunla rabitəni itiriblər. Zatulin özünü o dərəcədə ermənilərdən daha çox erməni hiss edir ki, Paşinyan iqtidarı onu “persona non-qrata” elan edib. Yəni, bu deputatın hərəkətləri və sözləri əndazəni çox aşır ki, hətta başqalarının səlahiyyətlərini mənimsəməyə səy göstərir. Öz başına problem yaradan bu avantüristin dərdi ondadır ki, Dumada tutduğu vəzifəsinə uyğun olaraq, dövlətin siyasətini formalaşdırmaq əvəzinə, daim ermənilərin təəssübünü çəkməklə, onlarım maraqlarına xidmət etməklə məşğuldur. Aydın məsələdir ki, bunun müqabilində Rusiyadakı erməni diasporasından müəyyən qazanc əldə edir. Onun haylara bu təmənnalı qulluğunun adı isə lobbiçilik yox, muzdluluqdur. Zatulin məlum fəaliyyəti ilə bütün qırmızı xətləri keçdiyindən onu hətta Ermənistana da buraxmırlar”.

Azərbaycanın müstəqil dövlət olaraq qazını haraya göndərmək, kimlərə satmaq barədə qərarı özünün verdiyinə diqqəti çəkən siyasi icmalçı ciddi rəqabətin mövcud olduğu bu sahədə nefti və qazı olan ölkələrin öz performanslarını nümayiş etdirmələrini normal hal hesab edir: “Əgər Rusiya qazı Ukraynaya getmirsə, bu halda Kiyev alternativ mənbələr axtarır. Bu zaman Azərbaycan niyə Rusiyanın maraqlarına görə öz xeyrindən keçməlidir? Xeyr, burada məsələyə sağlam baxmaq lazımdır. Azərbaycan eyni vaxtda İranla da əməkdaşlıq edir, İsraillə də. Baxmayaraq ki, bu iki dövlət bir-birinə düşməndir. Bakı üçün vaxtilə Kiyev və Moskva yaxın tərəfdaşlar idilər. Amma indi öz aralarında müharibə aparırlar. Azərbaycan bir daha göstərdi ki, onun üçün əsas meyar kiməsə qarşı kiminləsə dostluq etmək deyil. Bakı məhz öz maraqlarından çıxış edərək, dostlarımıza, tərəfdaşlarımıza fayda verir, həm də özü qazanır. Bu bazarda istehsalçı və istehlakçı, ixracatçı və tranzitor da var. Hamı öz xeyrini güdür. Yəni, bu məsələləri siyasiləşdirməyə gərək yoxdur. Bunu edənlər proseslərə Zatulin kimi xəstə təxəyyüllə yanaşanlardır”.

*

İndi isə cənab Konstantin Zatulinə bir neçə sual ünvanlamağın məqamı çatıb: “Rusiya Ermənistanı silahlandıranda, onu raket sistemləri, tanklar və döyüş sursatları ilə təmin edəndə Moskvada bu məsələ ilə bağlı Azərbaycanın fikrini soruşan vardımı?”; “102-ci Rusiya hərbi bazası Ermənistanda, Gümrüdə yerləşdiriləndə rəsmi Bakının fikrini öyrənən oldumu?”. Aydın məsələdir ki, hər iki sualın cavabı eynidir: “Xeyr!”. Və bütün bunlar Rusiyanın Ermənistan–Azərbaycan münaqişəsinin həllinə yardım etmək üçün yaradılan ATƏT-in Minsk qrupunun həmsədr ölkəsi olmasına baxmayaraq baş verirdi. Bu isə ritorik sualdır: “Niyə işğal fakt Rusiyanın təcavüzkar ölkəni – Ermənistanı dəstəkləməsinə mane olmadı?”.

Azərbaycan heç kimin köməyi olmadan müstəqil şəkildə gücünü toplaya, regionun lider ölkəsinə çevrilə, iqtisadiyyatını və ordusunu gücləndirə, doğma torpaqlarını erməni işğalından azad edə, milli maraqlara əsaslanan real çoxvektorlu xarici siyasət qura bildi. Dövlətimiz bu dürüst və sağlam kursu yenə davam etdirəcək. Ekspertimizin qeyd etdiyi kimi, rəsmi Bakı dəfələrlə və aydın şəkildə bildirib ki, Azərbaycan heç vaxt özünün enerji fəaliyyətini siyasiləşdirmək niyyətində deyil.

Prezident İlham Əliyev III Şuşa Qlobal Media Forumunun iştirakçıları ilə görüşündə bu mövzuya ətraflı toxundu: “Biz heç bir halda Rusiya ilə rəqabət aparmağa çalışmamışıq. Hətta o dövrdə ki, Rusiya Avropaya 150 milyard kubmetr qaz nəql edirdi, heç vaxt deməmişik ki, buna alternativ ola bilərik. Biz sırf kommersiya prinsipləri əsasında fəaliyyət göstəririk. Bizim enerji siyasətimiz biznes məqsədli olub. Biz bunu heç vaxt siyasiləşdirməmişik, heç bir zaman qazın həcmini azaltmamışıq. Hətta o ölkələrə ki, onlar heç vaxt bizimlə razılaşmayıblar. Bu, sırf kommersiya prinsiplərinə əsaslanaraq öhdəliklərimizi rədd etdiyimiz mənasına gəlmir və heç bir ölkəyə qaz nəqlində indiyə qədər fasiləyə yol verməmişik. Budur, bizim məsələmiz belədir. Əlavə 8 milyard kubmetr üçün bazarlar müəyyən edilir. Biz Avropa İttifaqının üzvü olan bir neçə ölkədən təkliflər almışıq. O ölkələr ki, bəziləri artıq bizim qazımızı alır, digərləri isə hələ də Azərbaycan qazını almır. Biz bu təklifləri dəyərləndiririk. Bazara çıxış baxımından da biz bu məsələləri kommersiya prinsipləri əsasında dəyərləndiririk”. Dövlətimizin başçısının bu konkret izahı və məsələni siyasi ehtirassız, obyektiv dəyərləndirməsi zatulinlərə, eləcə də onun kimi “qaranlıq otaqda qara pişik axtaranlara” ən layiqli cavabdır.

Postsovet ölkələrinin hazırda yeni əməkdaşlıq formatları axtarmaları heç kəsə təəccüblü gəlməməlidir. Bəli, Rusiya və Azərbaycanın maraqları bir çox məsələlərdə üst-üstə düşür. Buna misal olaraq, Qafqazda və Xəzəryanı regionda sülhün və sabitliyin təmin olunmasını göstərmək olar. Bakı bölgə və bölgəətrafı ölkələrin “3+3” formatında əməkdaşlığının inkişaf etdirilməsinə böyük önəm verir. Məhz bu formatda əlaqələrin möhkəmləndirilməsi həm Rusiya ilə ikitərəfli münasibətlərin normallaşmasına səbəb olar, həm də Cənubi Qafqazda sabitlik və inkişafı, eləcə də təhlükəsizliyi təmin edər. Bundan ötrü Şimal qonşumuzun üzünü ortaq maraqların kəsişdiyi nöqtələrə tərəf çevirməsi kifayətdir.

***İmran BƏDİRXANLI***
***XQ***

*REPLİKA*

# “Gərginlik” pərdəsi arxasında əməkdaşlıq

## *Rusiya–Ermənistan ticarətində çiçəklənmə*

**Son aylarda Rusiya ilə Ermənistan arasında münasibətlərin “soyuqlaşdığı” görüntüsü yaradılır. Geosiyasi ritorika, media müzakirələri və Paşinyan hakimiyyətinin bəzi çıxışları ikitərəfli münasibətlərdə böhran havası formalaşdırır. Lakin iqtisadi və ticarət əlaqələri bu ritorikanı qəti şəkildə təkzib edir.**







İyulun 29-da Moskvada Rusiya Kənd Təsərrüfatına Nəzarət Xidmətinin rəhbəri Sergey Dankvert ilə Ermənistanın Qida Təhlükəsizliyi Müfəttişliyinin rəhbəri Tiqran Petrosyan arasında görüş keçirilib. Görüşdə tərəflər arasında fitosanitar əməkdaşlığın dərinləşdirilməsi, bitki mənşəli məhsulların, xüsusilə də çiçək ixracatının genişləndirilməsi müzakirə olunub. Statistik göstəricilər isə “gərginlik” fonunda sürətlə inkişaf edən ticarətin reallıqlarını açıq nümayiş etdirir.

2025-ci ilin 23 iyul tarixinə qədər Ermənistandan Rusiyaya 103,4 min ton meyvə-tərəvəz məhsulu idxal olunub. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 50 faiz artım deməkdir. Daha bir diqqətçəkən fakt isə “çiçək mövsümündəki” sıçrayışdır: yalnız bu ilin əvvəlindən Rusiyaya Ermənistandan 71,1 milyon ədəd kəsilmiş çiçək ixrac olunub – bu, keçən illə müqayisədə 47 faiz çoxdur.

Halbuki bu rəqəmlər iki ölkə arasında dərin iqtisadi inteqrasiyanın davam etdiyini göstərir. Rusiya üçün Ermənistan hələ də əsas tərəfdaşlardan biri olaraq qalır. Ermənistan isə açıq şəkildə bəyan edir ki, Rusiya bazarı onlar üçün “xüsusi əhəmiyyət” daşıyır. 14 erməni istehsalçısı artıq Rusiya çiçək bazarına çıxış imkanı qazanıb. Yaxın zamanlarda birgə audit və inspeksiya prosesləri ilə bu sayın daha da artması gözlənilir.

Tərəflər həmçinin Avrasiya İqtisadi İttifaqının fitosanitar qaydalarına əməl olunması və informasiyaların vahid sistemdə izlənməsi ilə bağlı fikir mübadiləsi aparıblar. Bu, təkcə ticarət deyil, həm də idarəetmə səviyyəsində inteqrasiyanın dərinləşməsini göstərir.

Görüş zamanı həm Rusiya, həm də Ermənistan nümayəndələri ikitərəfli əlaqələrin “yüksək səviyyədə və ardıcıl inkişaf” etdiyini təsdiqləyiblər. Bütün bunlar isə bir daha sübut edir ki, siyasi ritorikalar fonunda iqtisadi gerçəklik tamam başqa istiqamətdə inkişaf edir. Bu reallığı isə nə “gərginlik” ritorikası, nə də üçüncü tərəflərin istəyi dəyişə bilir.

Gözəlliyi ilə tanınan çiçəklər indi Rusiya–Ermənistan münasibətlərinin simvoluna çevrilmək üzrədir – səssiz, lakin çox danışan simvol...

***Renat DADAŞOV,***
***hüquqşünas-politoloq***

# Böyük Qayıdışa dair I Proqram 74 faiz icra edilib



**İqtisadiyyat Nazirliyində “İqtisadi artım” və “Dayanıqlı məskunlaşma üçün ərazilərin iqtisadiyyatının yerli və xarici dəyər zəncirinə inteqrasiyası” üzrə alt işçi qrupların ilk iclası keçirilib.**

İqtisadiyyat Nazirliyi və əlaqədar dövlət qurumlarının rəhbər vəzifəli şəxsləri iştirak etdiyi müzakirədə iqtisadiyyat naziri, alt işçi qrupların rəhbəri Mikayıl Cabbarov Milli Prioritetlərə əsasən həyata keçirilən 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası və işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramının icrası barədə məlumat verib. O bildirib ki, proqramın icra səviyyəsi isə 74 faizdir. Ötən ilin sonunadək proqram çərçivəsində 21,6 milyard manat vəsait ayrılıb. Azad edilmiş ərazilərdə 55 müəssisənin olduğu 2 sənaye parkı yaradılıb. Biznes üçün güzəşt və azadolmalar tətbiq edilir. Bölgədə fəaliyyət göstərən müəssisələrin istehsal etdiyi məhsulların ixracına başlanılıb.

Məclisdə 2027-2030-cu illər üzrə hazırlanacaq sosial-iqtisadi inkişaf Strategiyasında nəzərdə tutulan prioritetlər, Böyük Qayıdışa dair II Dövlət Proqramı üzrə əsas fəaliyyət istiqamətləri haqqında da məlumat verilib.

***XQ***

# Avropa Azərbaycan Mərkəzi Fransanın qərəzli qətnamə layihəsini pisləyib

**Almaniyada fəaliyyət göstərən Avropa Azərbaycan Mərkəzi Fransa Milli Assambleyasında irəli sürülmüş növbəti qərəzli və əsassız qətnamə layihəsi ilə bağlı bəyanat yayıb. Bu barədə Avropa Azərbaycan Mərkəzinin sədri Zaur Əliyev məlumat verib.**

Bəyanatda Fransanın Cənubi Qafqaz regionunda neytral vasitəçi yox, tərəf kimi çıxış etməsinin, Ermənistanı hərbi sursatla təmin etməsi və revanşist qüvvələri təşviq etməsinin BMT Nizamnaməsinin 1-ci və 33-cü maddələrində təsbit olunmuş sülhün təşviqi və münaqişələrin dinc yolla həlli prinsipləri ilə ziddiyyət təşkil etməklə yanaşı, regional təhlükəsizliyə və sabitliyə təhdid yaratdığı, sülh səylərinə zərbə vurmaq məqsədi daşıdığı qeyd olunub.

***XQ***

# Prezident İlham Əliyevin siyasi təcrübəsində milli ideya və suverenlik



II MƏQALƏ

### Ərazi bütövlüyündən cəmiyyətin bütövlüyünə

Ərazi bütövlüyündən cəmiyyətin bütövlüyünə uğurlu keçidə liderlik təcrübəsi baxımından nadir rast gəlinir. Çünki ərazinin bütövlüyü coğrafi hadisədir, cəmiyyətin bütövlüyü sosial-mədəni-psixoloji fenomendir. Ərazinin bütövlüyünün siyasi, geosiyasi və dövləti faktor kimi insanların kollektiv mühitdə sosial, siyasi və mədəni-ideya birliyinə proyeksiya imkanı ciddi kreativ (yaradıcı) olaydır.

Burada siyasi lider üçün başlıca məsələ bu proyeksiyanı davamlı və dayanıqlı təmin edə biləcək və həm də siyasi-hüquqi inklüzivlik formalaşdıracaq mexanizmi tapmaqdan ibarətdir. İlham Əliyev təcrübəsində bu funksiyanı milli ideya yerinə yetirdi. Yalnız politoloji deyil, həm də fəlsəfi baxımdan maraqlı olan bu siyasi təcrübə komponentinin təhlilə ehtiyacı vardır.

Ərazi bütövlüyü ilə cəmiyyətin bütövlüyü anlayışlarının bir-biri ilə qarşılıqlı əlaqədə olduğu elmi ədəbiyyatda vurğulanır. Bu anlayışların münasibətlərinə daha çox dövlət quruculuğu və sabitliyin təmini kontekstində baxırlar. Lakin burada "ərazi bütövlüyü" anlayışının məna çalarlarının çox olması faktını nəzərə almaq gərəkdir.

Onun tarixi, siyasi, dövləti, sosial, coğrafi və mədəni aspektləri vardır. Onların kompleksi hər bir tarixi mərhələdə dövlətçilik üçün xüsusi məna kəsb edir. Bu baxımdan ərazi bütövlüyü ümumi halda beynəlxalq hüququn mühüm prinsipi olmaqla yanaşı, siyasi, tarixi, geosiyasi, mədəni kontekstlərdə də özəl mənalandırılmalı anlayışdır. Həmin təsəvvürün formalaşması isə birbaşa liderin siyasi təcrübəsinə bağlıdır.

Çünki hər bir tarixi dönəmdə ərazi bütövlüyü liderin siyasi baxışları, praktiki fəaliyyətinin məntiqi nəticəsi olaraq dövlətçiliyin aktual məsələsinə çevrilir. Azərbaycanda bu proses keçən əsrin 90-cı illərində xüsusi anlamda daha da aktuallaşdı. Azərbaycan Respublikasının ərazi bütövlüyü xarici təcavüz nəticəsində pozuldu. Üstəlik, beynəlxalq hüququn prinsipi kimi ərazi bütövlüyünü BMT təmin etmək istəmədi. Verilən sözlərə baxmayaraq, BMT ilə yanaşı, ATƏT də saxta davrandı.

Bununla avtomatik olaraq Azərbaycan üçün ərazi bütövlüyü beynəlxalq hüququn prinsipi qismində siyasi-ideoloji və geosiyasi xarakterli məsələ kimi ziddiyyətlər içinə düşdü. Belə bir vəziyyətdə yeganə çıxış yolu Azərbaycan dövləti və cəmiyyətinin daxili potensialını səfərbər etməklə ərazi bütövlüyünü təmin etməkdən ibarət ola bilərdi. Lakin bunu uğurlu surətdə necə etmək mümkün idi? Məhz bu suala konseptual və nəticəverici cavab tapmaq lazım idi. Bu isə mükəmməl müstəqil dövlət quruculuğu kursu daxilində ərazi bütövlüyünün yeri və rolunu adekvat müəyyən etməyi tələb edirdi.

Belə alınır ki, lider elə bir siyasi-ideoloji mexanizm müəyyən etməli idi ki, ərazi bütövlüyünün təminini cəmiyyət özünün varlığı və bütövlüyünün təməl şərti kimi qəbul etsin. Hər tərəfdən ciddi təzyiqlərə, təcavüzlərə məruz qalan və faktiki olaraq coğrafi, siyasi, ideoloji, mədəni, psixoloji və sosial parçalanma ehtimalı getdikcə yüksələn bir cəmiyyətdə optimal həll formulu müəyyən etmək siyasi liderlikdə dühalıq tələb edirdi. Bu vəzifənin öhdəsindən Heydər Əliyev gəldi.

Ulu öndər ərazi bütövlüyünü dövlətçilik tariximizdə ilk dəfə olaraq milli ideya kontekstində aktuallaşdırmaqla böyük bir addım atdı. Burada potensial olaraq 3 mühüm faktor daxili məntiqi əlaqədə təqdim olunurdu - ərazi bütövlüyü, milli ideya və suverenlik! Daha dəqiqi - ərazi bütövlüyünün təminindən suverenliyin təmininə siyasi və ideya keçidi etmək üçün milli ideya əsas mexanizm rolunu oynamalı idi. Bununla müasir mərhələdə Avrasiyanın siyasi təcrübəsində ilk dəfə olaraq müstəqil dövlət ərazi bütövlüyü məsələsini cəmiyyətin bütövlüyü ilə üzvi surətdə və konseptual səviyyədə birləşdirə bildi.

Tədqiqatçılar yazırlar ki, dövlətin ərazi bütövlüyü ilə cəmiyyətin bütövlüyünün təmini "istənilən müstəqil dövlətin suverenliyi üçün mütləq mənada əhəmiyyətlidir". Bunun üçün tədqiqatçılar konkret şərtləri də vurğulayırlar.

Birincisi, ərazi bütövlüyü "dövlətin təşkilati prinsiplərindən biri kimi" dərk edilir.

İkinicisi, onun potensial olaraq pozulma ehtimalı tam qəbul edilir (yəni heç bir müstəqil dövlət bundan tam sığortalanmamışdır).

Üçüncüsü, ərazi bütövlüyü "daxili və xarici siyasi və ictimai qüvvələrin fəaliyyəti nəticəsində" pozula bilər.

N.V.Ostoruxovun fikri də vurğulanan kontekstdə maraqlıdır. O, 2013-cü ildə yazırdı ki, "ərazi bütövlüyü dövlətin suverenliyinin ayrılmaz elementidir". Ərazi bütövlüyünə dövlətdaxili və beynəlxalq miqyaslarda həyata keçirilən sistemli siyasət nəticəsində nail olmaq mümkündür. Həmin siyasət özündə siyasi, hüquqi, təşkilati, diplomatik, hərbi, xüsusilə sosial, ideoloji, mədəni və s. aspektləri birləşdirir.

Bu iki iqtibasın ortaq məntiqi ərazi bütövlüyü, cəmiyyətin bütövlüyü və suverenliyin vəhdətdə olmasını təsbit etməkdən ibarətdir. Təbii olaraq, dövlətçiliyin bu vacib atributları arasında davamlı və dayanıqlı əlaqə yaradan faktor-mexanizm olmalıdır. Həmin keyfiyyətdə milli ideyanın rolu əvəzsizdir. Öncə Heydər Əliyev məsələnin bu kontekstdə əsasını qoydu, sonra isə İlham Əliyev onu inkişaf etdirərək reallaşdırdı. Bu məqsədinə Azərbaycan Prezidenti siyasi təcrübəsi vasitəsi ilə nail oldu. Əsas tezis bundan ibarətdir.

Prezident İlham Əliyev çoxsaylı çıxışlarında ərazi bütövlüyü ilə xalqın həmrəyliyini əlaqələndirmişdir. Bu məsələni Azərbaycanın lideri həmişə həyata keçirdiyi siyasi kurs kontekstində izah etmişdir. Yəni birbaşa liderin siyasi təcrübəsinin oynadığı rol irəli çıxarılmışdır. Bu iki faktorun qarşılıqlı əlaqəsində isə müstəqillik və suverenliyin təmini məsələsi vurğulanmışdır. Başqa bucaq altında baxanda aydın olur ki, Prezident İlham Əliyevin siyasi təcrübəsi eksklüziv olaraq milli ideyanın reallaşması bazasında ərazi bütövlüyünün və suverenliyin təmini istiqamətlərinin vəhdətində formalaşmışdır. Bu tezisin faktlarla təsdiqinə diqqət edək.

### Siyasi təcrübənin "təməl sahəsi"

İlham Əliyev 2024-cü ildə yerli televiziya kanallarına verdiyi müsahibədə belə bir tezis ifadə etmişdir. Dövlət başçısı vurğulamışdır: "1993-2003-cü illərin hadisələrinə nəzər salsaq görərik ki, məhz bu illər ərzində bugünkü dövlətçilik prinsipləri bərqərar olundu və Azərbaycanda vətəndaş cəmiyyəti yaradıldı, eyni zamanda, xalq-iqtidar birliyi artıq önəmli bir amilə çevrildi".

Bu tezisdən İlham Əliyevin siyasi təcrübə əldə etməsi prosesi kontekstində məntiqi olaraq çox maraqlı nəticə hasil olur. Azərbaycan Prezidenti faktiki olaraq həmin təcrübənin "təməl sahəsi"nin ideya və prinsip mənzərəsini təqdim etmişdir.

Onun üç əsas sütunu vardır: dövlətçilik prinsiplərinin bərqərar olması, Azərbaycanda vətəndaş cəmiyyətinin yaradılması və xalq-iqtidar birliyinin təmini! Bu üç mühüm təməl faktorun nəzəri bağlılığı mövcuddur.

Dövlətçilik prinsipləri siyasi sahəni əhatə edir, vətəndaş cəmiyyəti sosial sferanı birgəyaşam forması aspektində xarakterizə edir, xalq-iqtidar birliyi isə, ümumiyyətlə, sosial birliyin mühüm aspektinə aiddir.

Bununla Prezident İlham Əliyevin siyasi təcrübəsinin təməlini siyasi, sosial və ideya (ideologiya, konsepsiya) aspektlərinin qarşılıqlı əlaqəsi təşkil edir. Bu istiqamətlərin kompleks halında yekun mənzərəsinin formalaşmasında aparıcı rolu milli ideya yerinə yetirmişdir. Vurğulanan tezisin prossesual tərəfini Prezidentin 2003-cü ildən başlayaraq göstərdiyi fəaliyyətin konkret nəticələri təsdiq edir. Nümunələrə nəzər salaq.

2003-cü ildə Andiçmə mərasimində İlham Əliyev vurğulamışdır: "Azərbaycanın çox güclü ordusu olmalıdır. O, qarşıda duran bütün məsələləri həll etmək iqtidarında olmalıdır...Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ölkəmiz üçün ən ağır problemdir...Bu məsələ öz həllini tapmalıdır. Bu problem yalnız bir neçə prinsiplər, beynəlxalq hüquq normaları əsasında həll oluna bilər: Azərbaycanın torpaqları işğaldan azad olunmalıdır, bir milyon qaçqın və köçkün öz doğma yurdlarına qayıtmalıdır, ölkəmizin ərazi bütövlüyü bərpa edilməlidir".

Bu fikirlərdə Azərbaycanın ərazi bütövlüyünün təmini prioritet məsələ kimi təqdim edilmişdir və onun milli ideya çərçivəsində reallaşmalı olduğu hər kəsə məlumdur. Prezident İlham Əliyev milli ideyanın nəyin bahasına olursa-olsun reallaşacağının da mesajını vermişdir.

2003-cü ildə siyasi təcrübənin təməlinə yerləşdirilmiş bu prinsiplərin həyata keçməsi dinamikası necə olmuşdur? Prezident İlham Əliyev 2018-ci ildəki Andiçmə mərasimində söylədiyi nitqində ərazi bütövlüyünün bərpası və cəmiyyətin birliyinin təmini məsələlərini xüsusi qeyd etmişdir. Dövlət başçısı ərazi bütövlüyünün bərpası kontekstində ifadə etmişdir: "...Son 15 il ərzində bir çox ən mötəbər beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim təklifimizi qəbul edərək çox önəmli qətnamələr qəbul etmişlər. Orada göstərilir ki, münaqişə ölkəmizin ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. BMT-nin Baş Assambleyası, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM və digər təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimizi dəstəkləyən qətnamələr qəbul etmişdir. Ondan əvvəlki dövrdə isə BMT Təhlükəsizlik Şurası və ATƏT qətnamələr qəbul etmişdir ki, bu, münaqişənin həlli üçün hüquqi baza yaradır".

Cəmiyyətin birliyi ilə bağlı isə Prezident aşağıdakı fikirləri bəyan etmişdir: "Azərbaycan bu 15 il ərzində uğurla inkişaf edib. Azərbaycan xalqı birlik, həmrəylik nümayiş etdirib. Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək".

Vurğulanan fikirlər onu ifadə edir ki, 2003-2018-ci illər ərzində Azərbaycan Prezidenti milli ideyanın reallaşdırılması və cəmiyyətin birlik səviyyəsinin yüksəldilməsi istiqamətlərində kifayət qədər zəngin və özünəməxsus təcrübə toplamışdır. Bu prosesin konkret tərkib hissələrinə baxdıqda orada bütün istiqamətlərdə - siyasətdə, sosial sahədə¸ geosiyasətdə, diplomatiyada, mədəniyyətdə, ideologiyada, enerji sferasında, iqtisadiyyatda, ordu quruculuğunda, təhlükəsizliyin təminində, beynəlxalq təşkilardakı fəaliyyətdə böyük zəhmət çəkilmişdir.

Və bütün bunların nəticəsi özünü 2020-ci ilin payızında Vətən müharibəsində göstərdi. Onun əsasında biz ikinci politoloji tezisimizi formalaşdırırıq: "Müstəqil Azərbaycan Respublikasında dövlət quruculuğu tarixində ik dəfə olaraq Prezidentin siyasi təcrübəsi milli ideya-suverenlik qarşılıqlı əlaqəsinin keyfiyyətcə yeni mərhələyə yüksəlməsinin başlıca faktoru oldu".

**(ardı var)**

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

# Sərhəd dirəkləri bölgədə yeni geosiyasi reallıq yaratdı

## *Ermənistan prezidenti: "Delimitasiyadan sonra vəziyyət bizim üçün təhlükəsiz oldu"*

**Ermənistan uzun illər işğal etdiyi Qarabağ və ətraf rayonlarda mövcud təmas xəttini de-fakto sərhəd kimi təqdim etməyə və bu status-kvonu qorumağa cəhd göstərdi. Nəticədə regionda 30 ilə yaxın davam edən qeyri-müəyyənlik, münaqişə və sabitlik boşluğu yarandı.**

Lakin 2020-ci ildə 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə nəticələndi və Ermənistanın işğal siyasətinə son qoyuldu. Bu, regionda tamamilə yeni bir geosiyasi reallıq yaratdı. Yeni mərhələdə Azərbaycan yalnız hərbi uğurla kifayətlənmədi, eyni zamanda, regional sabitliyin və sülhün təmin olunmasını əsas hədəflərdən biri kimi müəyyənləşdirdi. Bunun üçün beynəlxalq hüquq prinsiplərinə əsaslanan sərhəd müəyyənləşdirmə prosesinə start verildi. Delimitasiya prosesi ilkin olaraq Ermənistanın Tavuş vilayətində başladı. Bağanis–Voskepar istiqamətində aparılan işlər nəticəsində sərhəd koordinatları dəqiqləşdirildi və bölgədə təhlükəsizlik mühiti əhəmiyyətli dərəcədə yaxşılaşdırıldı.

Bu proses Ermənistan daxilində, xüsusən də radikal müxalifət, dini institutlar və revanşist qruplar tərəfindən ciddi müqavimətlə qarşılandı. Sərhədlərin dəqiqləşdirilməsi bir çox hallarda Ermənistan cəmiyyətində yanlış formada təqdim edildi. Müəyyən qruplar bu prosesi "ərazi itkisi", "təhvil" və ya "kapitulyasiya" kimi şərh edərək cəmiyyətdə süni narahatlıq yaratmağa çalışdılar. Bu təbliğatın kulminasiyası Tavuş vilayətində keçirilən etiraz aksiyalarında, müxalifət partiyalarının sərt ritorikasında və bəzi dini liderlərin populist bəyanatlarında öz əksini tapdı. Nəticədə daxildə siyasi parçalanma daha da dərinləşdi, dövlətə olan inam azaldı və ölkənin regional əməkdaşlıq imkanları zəifləməyə başladı.

Erməni müxalifətinin "dörd kəndin Azərbaycana verilməsi" kimi təqdim etdiyi məsələ isə tarixi və hüquqi baxımdan tamamilə yanlışdır. Söhbət Yuxarı Əskipara, Bağanis Ayrım, Qızılhacılı və Xeyrimli kəndlərindən gedir. Bu kəndlər SSRİ dövründə tərtib edilmiş rəsmi topoqrafik xəritələrdə də Azərbaycan ərazisi kimi qeyd olunub. Məsələ hüquqi sənədlərlə, arxiv materialları və beynəlxalq praktika ilə təsdiqlənib. Bu səbəbdən delimitasiya prosesi heç bir şəkildə yeni ərazi mübadiləsi deyil, sadəcə, mövcud reallığın rəsmi və hüquqi təsdiqi hesab olunur.





Bütün daxili təzyiqlərə baxmayaraq, Ermənistan baş naziri Nikol Paşinyan bu prosesin Ermənistanın milli maraqlarına uyğun olduğunu bəyan etdi. O, dəfələrlə bildirdi ki, sərhədlərin hüquqi baxımdan tanınması Ermənistanın təhlükəsizliyi və beynəlxalq legitimliyi baxımından həyati əhəmiyyət daşıyır. Paşinyanın 2024-cü ilin aprel ayında verdiyi "Sərhədlər hüquqi baxımdan tanınmasa, sülh mümkün deyil" bəyanatı onun məsələyə rasional və strateji yanaşdığını göstərdi.

Delimitasiya prosesinin ilkin müsbət nəticələri artıq özünü göstərməyə başlayıb. Ermənistanın Noyemberyan icmasının rəhbəri Arsen Ağababyanın qeyd etdiyi kimi, əvvəllər bu ərazilərdə hərbi qüvvələrin mövcudluğu və atəşkəs pozuntuları kənd sakinlərinin gündəlik həyatına ciddi şəkildə mənfi təsir göstərirdi. Hazırda burada sərhədçilərin yerləşdirilməsi insident riskini minimuma endirib və əhalidə təhlükəsizlik hissini artırıb. Ağababyan bildirib ki, yaranmış sabitlik bölgədə ictimai və mədəni həyatı canlandırıb. Məsələn, Koğb kəndində təşkil edilən ənənəvi Vardavar bayramı bu il daha təntənəli və izdihamlı şəkildə keçirilib. Bayramda yerli əhali ilə yanaşı, qonşu kəndlərdən gələn qonaqlar da fəal iştirak ediblər ki, bu da regionda ictimai münasibətlərin dirçəlməsinə və mədəni ənənələrin yaşadılmasına töhfə verir.

Eyni zamanda sosial-iqtisadi sahədə də yeni təşəbbüslər irəli sürülüb. Noyemberyanda qalereyanın açılması, yerli və xarici rəssamların iştirakı ilə təşkil olunan plenerlər və yaradıcı görüşlər bölgənin mədəni həyatını canlandırır. Ağababyan bildirir ki, bu layihələr, xüsusilə gənclər üçün yeni imkanlar yaradır, onların yaradıcılıq potensialını inkişaf etdirir və yerli istedadların üzə çıxmasına şərait yaradır. Bütün bu fəaliyyətlər, eyni zamanda, turizmə və iqtisadi inkişafa da müsbət təsir göstərir.

O bildirir ki, əvvəllər bu ərazilərdə tez-tez atəş səsləri eşidilir, insanlar qorxu və təlaş içində yaşayır, gələcəyə ümidsiz baxırdılar: "Kəndlər tərk edilir, həyat sönür, ailələr daha təhlükəsiz yerlərə köçməyə məcbur olurdu. Lakin bu gün bölgədə sabitlik və təhlükəsizlik bərpa olunmaqdadır. Artıq atəş səsləri eşidilmir, insanlar kəndə qayıdır, evlərini bərpa edir, uşaqlar yenidən məktəb yolunu tutur, həyat canlanır. Bu reallıq bir zamanlar mümkünsüz görünürdü. İndi isə sabitlik, normal həyat, inam və gələcək perspektivlər gündəlik reallığa çevrilib".

Bu tendensiya erməni mediasında da öz əksini tapır. Cəmiyyətdə sərhədlərin dəqiqləşdirilməsinin və sülh sazişinin imzalanmasının regiona sabitlik gətirəcəyinə inam artır. İnsanlar anlayır ki, sabitlik və qarşılıqlı tanınma olmadan davamlı inkişaf mümkün deyil. Bu isə iki dövlət arasında sərhədlərin müəyyənləşməsindən keçir.

Bütün bunlar onu göstərir ki, sərhədlərin hüquqi əsaslarla müəyyən olunması təkcə Azərbaycanla Ermənistan arasında deyil, bütövlükdə Cənubi Qafqaz regionunda sülhün, sabitliyin və əməkdaşlığın təmin olunması baxımından strateji əhəmiyyət daşıyır. Bu proses yalnız gərginlik və münaqişələrin qarşısını almağa deyil, eyni zamanda regionun geoiqtisadi gələcəyinin formalaşmasına, tranzit yolların təhlükəsizliyinin təmin olunmasına, sərmayələrin artmasına və iqtisadi əlaqələrin genişlənməsinə töhfə verir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən Orta Dəhliz, onun bir qolu olan Bakı–Tbilisi–Qars dəmir yolu və Zəngəzur dəhlizi məhz bu sabitliyin üzərində inkişaf edə bilər. Hadisələrin bu fonunda Ermənistan prezidenti Vaaqn Xaçaturyanın Sünik bölgəsində keçirilən müşavirə zamanı verdiyi açıqlama maraq doğurur: "Sünikin və həmin 43 kilometrlik hissənin nə qədər önəmli olduğunu anlayırıq. Əsas məqsədimiz isə yaxın zamanda sülh sazişi imzalamaqdır".

Delimitasiya və demarkasiya prosesi, həmçinin regionda sosial sabitliyin bərpasına, qaçqın və məcburi köçkünlərin öz yurdlarına qayıtmasına, sərhədyanı kəndlərdə sosial infrastrukturun qurulmasına, əhalinin həyat səviyyəsinin yüksəlməsinə və mədəni əlaqələrin bərpasına şərait yaradır.

Ən başlıcası isə bu proses uzun illər pozulmuş beynəlxalq hüququn və tarixi ədalətin bərpasına xidmət edir. Cənubi Qafqazın gələcəyi üçün əsaslı və davamlı sülh məhz bu prinsiplər üzərində qurulmalıdır.

*Pünhan ƏFƏNDİYEV*
*XQ*

# Sənayedə qeyri-neft sektorunun çəkisi artır

**Bu ilin yanvar-iyun aylarında ölkədə 62 milyard 78 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,5 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal edilib. Hesabat dövrü ərzində Azərbaycanın qeyri-neft-qaz sektorunda ÜDM istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 3,9 faiz artaraq 42 milyard 985 milyon manata yüksəlib. Bu dövrdə qeyri-neft-qaz sektorunun ÜDM-də payı 69,2 faiz olub.**



2025-ci ilin yanvar-iyun aylarında sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fərdi sahibkarlar tərəfindən 31,2 milyard manatlıq və ya 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 1,9 faiz az sənaye məhsulu istehsal edilib, məhsul istehsalı neft-qaz sektorunda 3,1 faiz azalıb, qeyri-neft-qaz sektorunda isə 6,3 faiz çoxalıb.

Rəsmi statistikaya məxsus bu müsbət göstəricilərin əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğur makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsi ilə şərtlənir.

Azərbaycan iqtisadiyyatın bütün sahələrində, eləcə də sənayenin inkişafında böyük uğurlar əldə edir. Bu gün iqtisadi fəallığın artırılması, dayanıqlı inkişafın təmin olunması məqsədilə ənənəvi sənaye sahələri ilə yanaşı, yeni prioritet istehsal obyektlərinin, sənaye parklarının yaradılması da davamlı xarakter daşıyır.

Qeyri-neft-qaz sektorunda nəzərə çarpan müsbət dinamika həm də ölkəmizdə uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının müvcud sahədəki fəaliyyəti, həmin zonalarda yeni sənaye sahələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların geniş cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılıb və bu, müsbət göstəricilərlə müşahidə edilib.

Sənaye parklarının yaradılmasında əsas məqsəd innovativ və yüksək texnologiyalar əsasında rəqabət qabiliyyətli sənaye istehsalının inkişafına, xidmətlərin göstərilməsi üçün münbit şəraitin yaradılmasına və mövcud sahədə sahibkarlığın dəstəklənməsinə nail olmaqdır. Eyni zamanda, ölkənin yerli və xarici investisiyalar üçün əlverişliliyinin artırılması, əmək qabiliyyətli əhalinin istehsal sahəsində məşğulluğunun artırılması kimi məsələlər də qarşıda mühüm vəzifələr kimi durur.

Qarabağ və Şərqi Zəngəzurun dirçəlməsində də sənayeləşmə siyasətinə mühüm önəm verilir. Başqa sözlə, işğaldan azad edilmiş ərazilərimizdə sənaye parklarının yaradılması və bu sahəyə investisiya cəlb olunması bölgənin resurslarından, həmçinin iqtisadi imkanlardan yararlanmaqla Qarabağın ölkə iqtisadiyyatına səmərəli reinteqrasiyasına əlavə stimul yaradır. Qeyri-neft sənayesinin inkişafı Azərbaycanın karbohidrogen daşıyıcılarının hasilatı və ixracından əldə edilən gəlirlərdən, həmçinin daxili istehsalın və istehlak bazarının idxaldan asılılığını azaldır, ixracın şaxələnməsinə xidmət edir.

Son illərdə respublikada yüzlərlə müasir sənaye müəssisəsinin, yeni istehsal sahələrinin, müxtəlif bölgələrdə sənaye parklarının yaradılması daxili tələbatın ödənilməsində yerli məhsulların payını əhəmiyyətli dərəcədə artırır, ixrac imkanlarını genişləndirir. Eyni zamanda, Azərbaycanda lazım olan bütün istehsalat sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühitinin mövcudluğu, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlərin dərinləşdirilməsi qeyri-neft sənayesinin inkişafını şərtləndirir.

Qeyri-neft sənayesində müsbət göstəricilərin əldə olunması nda bir sıra digər amillər də mühüm rol oynayır. Belə ki, ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, həmçinin tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirilən layihələr və qlobal miqyaslı təşəbbüslər qeyri-neft-qaz ixracının artımını sürətləndirir. Bundan başqa, paytaxtda və regionlarda beynəlxalq aeroportların, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq–Qərb və Şimal–Cənub nəqliyyat dəhlizlərinin müasirləşdirilməsi daşımaların həcminə müsbət təsir göstərir.

Ölkə rəhbərinin tapşırığı ilə qeyri-neft-qaz sektorunda istehsal olunan məhsulların xaricə, o cümlədən, qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər də ardıcıl həyata keçirilir, dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması diqqət mərkəzində saxlanılır. Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər getdikcə gücləndirilir. Bu, ilk növbədə, investorlar üçün mühüm önəm daşıyan investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması layihələrində özünü qabarıq büruzə verir.

Bu fikrin təsdiqi olaraq yanvar-iyun aylarında qeyri-neft-qaz sektorunda əldə edilən ixrac göstəricilərinə nəzər salaq. Qeyd edək ki, hesabat dövründə Azərbaycanın qeyri-neft sektoru üzrə ixracı 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə 9,9 faiz artaraq 1,8 milyard dollara yüksəlib. 2025-ci ilin yanvar-iyun aylarında yeyinti məhsullarının ixracı 19,1 faiz artaraq 565 milyon dollara bərabər olub. Bu müddətdə aqrar məhsulların ixracı 21,9 faiz artaraq 455 milyon dollara, aqrar-sənaye məhsullarının ixracı 7,7 faiz artaraq 145 milyon dollara yüksəlib. Bütövlükdə aqrar və aqrar-sənaye məhsullarının birgə ixracı 18,2 faiz artaraq 600 milyon dollar olub.

Son illərdə Azərbaycanın kənd təsərrüfatı sektorunda yaradılmış məhsul bolluğu daxili bazarın tələbatını ödəməklə yanaşı, ölkənin ixrac potensialının artmasına da mühüm töhfələr verir. Bu baxımdan əsas bitkiçilik məhsullarından sayılan pambıq mahlıcı və pomidoru xüsusi qeyd etmək olar. Elə cari ilin yanvar-aprel aylarında ölkəmizdən ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında adıçəkilən məhsulların üstünlük təşkil etməsi də bunu təsdiqləyir. Belə ki, hesabat dövründə Azərbaycandan 26,8 milyon dollarlıq meyvə-tərəvəz ixrac olunub ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 14,8 faiz çoxdur.

Cari ilin ilk altı ayında Rusiya Federasiyasına 586 milyon dollar, Türkiyəyə 287 milyon dollar, Gürcüstana 155 milyon dollar, İsveçrəyə 152 milyon dollar, Ukraynaya isə 96 milyon dollar dəyərində qeyri-neft sektoruna aid mal göndərilib. Qeyri-neft özəl sektorunda əmək müqavilələrinin sayında da artım müşahidə edilib. Belə ki, 2019-cu ilin əvvəli ilə müqayisədə qeyri-neft sektorunun özəl bölməsində bağlanan əmək müqavilələrinin sayı 2025-ci ilin iyul ayının 1-nə 451 min 682 vahid artaraq 991 min 604 olub.

Hesabat dövründə qeyri-neft-qaz sektorundan vergi daxilolmaları da artıb. Belə ki, bilin I yarımilində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xəttilə dövlət büdcəsinə 8 milyard 704 milyon manata yaxın vergi daxil olub, proqnoza 106 faiz əməl edilib. 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə vergi daxilolmaları 422 milyon manat və ya 5,1 faiz çox olub.

Qeyri-neft-qaz sektorundan daxilolmalar 6 milyard 421,6 milyon manat olub, proqnoz 103,6 faiz yerinə yetirilib. Əvvəlki ilin eyni dövrü nisbətən bu sektordan vergi daxilolmaları 547 milyon manat və ya 9,3 faiz çoxalıb. Ödənilən vergilərin 73,8 faizi qeyri-neft-qaz sektorunda, 26,2 faizi isə neft-qaz sektorunda müşahidə olunub.

Dövlət büdcəsinin qeyri-neft-qaz sektoru üzrə gəlirləri də artıb. Belə ki, dövlət büdcəsinin qeyri-neft-qaz sektoru üzrə daxilolmaları 2025-ci ilin yanvar-iyun ayları üzrə dövlət büdcəsinin ümumi daxilolmalarının 51,9 faizini təşkil edərək 10 milyard 277 milyon manata çatıb. Bu da proqnozla müqayisədə 457 milyon manat və ya 4,7 faiz, 2024-cü ilin müvafiq dövrü ilə müqayisədə isə 232 milyon manat və ya 2,3 faiz çox təşkil edib. Cari ilin birinci yarısında dövlət büdcəsinin gəlirlərində qeyri- neft-qaz sektoru üzrə daxilolmaların 62,4 faizi vergi, 30,1 faizi gömrük orqanlarının, 3 faizini isə dövlət büdcəsindən maliyyələşdirilən təşkilatların ödənişli xidmətlərindən daxilolmaların payına düşüb.

Qeyri-neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmində də artım müşahidə olunub. Belə ki, hesabat dövründə əsas kapitala 8 milyard 73,5 milyon manat investisiya yönəldilib. Neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi 23,8 faiz azalıb, qeyri-neft-qaz sektoruna yönəldilən investisiyaların həcmi isə 13,5 faiz çoxalıb. Ümumi sərmayənin 4068 milyon manatı və ya 50,4 faizi məhsul istehsalı sahələrinin, 2672 milyon manatı (33,1 faizi) xidmət sahələrinin, 1334 milyon manatı (16,5 faizi) isə yaşayış evlərinin tikintisinin payına düşüb.

Göründüyü kimi, son illər ölkəmizdə qəbul olunmuş məqsədli dövlət proqramları, əlverişli biznes mühiti, eləcə də uğurlu şaxələndirmə siyasəti qeyri-neft sektorunun inkişafını sürətləndirir. Bu da öz növbəsində ixracın strukturunda qeyri-neft mallarının payının getdikcə artmasına imkan yaradır.

# BP Azərbaycanda peşə hazırlığını da dəstəkləyir



**BP şirkəti "Azəri–Çıraq–Günəşli", "Bakı–Tbilisi–Ceyhan", "Şahdəniz" və "Cənubi Qafqaz Boru Kəməri" layihələrindəki tərəfdaşları ilə Azərbaycanda bərpa olunan enerji texnologiyaları sahəsində bacarıqların inkişafına yönəlmiş transformativ bir peşə təhsili layihəsini uğurla başa çatdırıb. Bu münasibətlə Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsili Mərkəzində keçirilən mərasimdə məlumat verilib.**

Məclisdə Peşə Təhsili üzrə Dövlət Agentliyinin direktoru Ceyhun Kərəmov son illər ölkəmizdə peşə təhsilinin inkişafı sahəsində həyata keçirilən tədbirlərdən danışıb. Elm və təhsil naziri Emin Əmrullayev BP-nin Azərbaycanda peşə təhsilinin inkişafına dəstək layihəsinin əhəmiyyətini vurğulayıb. Nazir hazırda ölkəmizdə peşə təhsili alanların sayının, təqribən, 30 min nəfər olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ölkə üzrə orta təhsil səviyyəsində olan 100 mindən artıq gənc peşə təhsili almaq imkanı əldə edə bilər. Peşə təhsilinin inkişafı həm məşğulluq, həm də iqtisadiyyatın real sektorları üçün vacib resursdur.

Bu il Lənkəran şəhərində peşə təhsili mərkəzi istifadəyə veriləcəyini bildirən E.Əmrullayev Ağdam şəhərində də belə mərkəzlərin yaradılması istiqamətində layihələndirmə işlərinə artıq start verildiyini diqqətə çatdırıb. Bildirib ki, bu təşəbbüs işğaldan azad olunmuş ərazilərə qayıdan vətəndaşların müvafiq peşə bacarıqları qazanmasına və onların məşğulluğunun dəstəklənməsinə xidmət edəcək.

Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin direktoru Cavid Abdullayev isə qeyd edib ki, nazirlik tərəfində elektromobillik strategiyası hazırlanıb. Hazırda həmin strategiyanın hökumətin müzakirəsində olduğunu vurğulayan direktorun sözlərinə görə, 2027-ci ilin sonuna qədər Azərbaycanda bərpa olunan enerji sahəsində quraşdırılmış güc 2 min meqavata qədər artacaq.

Qeyd edilən bu təşəbbüs BP və tərəfdaşlarının ölkəmizdə təhsilə və dayanıqlı inkişafa dəstək öhdəliyinin bir hissəsidir. Layihədə məqsəd peşə təhsili alan tələbələrin və bu sahədə ixtisaslaşan müəllimlərin sürətlə inkişaf edən bərpa olunan enerji sektorunda fəal iştirakı üçün onları lazımi bilik və praktiki bacarıqlarla təmin etməkdir. Layihə özündə iki əsas komponenti birləşdirir. Bunlardan biri bərpa olunan enerji üzrə tədris emalatxanalarının yaradılmasından ibarətdir. Bu məqsədlə Tikinti və Quraşdırma İşləri üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi və Texnika və Texnologiyalar üzrə Bakı Dövlət Peşə Təhsil Mərkəzi üçün olmaqla, ümumilikdə, iki tam təchiz olunmuş, müasir bərpa olunan enerji emalatxanası yaradılıb. Bu innovativ emalatxanalar real bərpa olunan enerji ssenariləri əsasında immersiv, praktiki təlim imkanları təqdim edir. Hər iki emalatxana qabaqcıl günəş və külək enerjisi sistemləri ilə təchiz olunaraq tələbələrə sənaye standartlarına uyğun praktiki bacarıqlar əldə etməyə imkan yaradır.

Layihənin digər komponenti iqlim dəyişikliyi və ətraf mühit üzrə əhatəli təlim modulunun hazırlanması və peşə təhsili proqramına daxil edilməsi ilə bağlıdır. Modulda qlobal istiləşmənin elmi əsasları və təsiri, insan fəaliyyətinin iqlim dəyişikliyinə təsiri, bərpa olunan enerji mənbələrinin bu təsirin azaldılmasında rolu, enerji səmərəliliyi və dayanıqlı inkişaf kimi mövzular əhatə olunub.

**BP-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli Azərbaycanın peşə təhsili sistemi və bərpa olunan enerji sektoru üçün uzunmüddətli töhfələr verəcək bir layihəni uğurla başa çatdırmaqdan çox məmnun olduğunu bildirərək deyib:** "İnanırıq ki, bu layihə tələbələrə bərpa olunan enerji texnologiyaları sahəsində praktiki bacarıqlar qazanmaq, müəllimlərə isə tədrisin keyfiyyətini artırmaq üçün dəyərli imkanlar yaradır. Ən önəmlisi isə odur ki, layihə gənc mütəxəssislər arasında dayanıqlı iqlim savadlılığını və ekoloji məsuliyyəti təşviq edərək Azərbaycanın enerji keçidi üçün ixtisaslı işçi qüvvəsinin formalaşmasına töhfə verir".

Xatırladaq ki, layihə "World Skills Azerbaijan" İctimai Birliyi tərəfindən həyata keçirilib. 2024-cü ilin may ayında başlanmış və 2025-ci ilin iyul ayında başa çatmış layihənin ümumi dəyəri 322 min manat (təxminən 189 min 400 ABŞ dolları) təşkil edib.

Yeri gəlmişkən, Azərbaycanda 33 ildir fəaliyyət göstərən BP şirkəti əməliyyatçısı olduğu neft və qazın kəşfiyyatı, işlənməsi və nəqli üzrə iri layihələrin icrasını təhlükəsiz, səmərəli və etibarlı şəkildə həyata keçirir. Şirkət ötən müddətdə tərəfdaşları ilə birlikdə icraçısı olduğu layihələrə 87 milyard dollardan çox sərmayə qoyub. Bununla yanaşı, BP ölkəmizdə ən çox töhfə verə biləcəyinə inandığı sahələrə sərmayə yönəltməklə dayanıqlı inkişaf təşəbbüslərinə dəstək vermək öhdəliyi götürüb.

BP-nin ölkədə həyata keçirdiyi geniş sosial sərmayə fəaliyyətləri və bacarıqların inkişaf etdirilməsi istiqamətindəki səyləri insanlara əhəmiyyətli faydalar gətirməklə, onların həyatını yaxşılaşdırıb və dəyişdirib. Şirkətin sosial sərmayələri yerli potensialın yaradılması, təhsil, icmaların inkişafı, yerli sahibkarlıq, ətraf mühit, idman potensialının artırılması, habelə ölkənin zəngin mədəni irsinin tədqiqi və təbliği kimi sahələrə yönəlib. Fəaliyyətə başladığı vaxtdan indiyədək bp özü və onun əməliyyatçısı olduğu birgə layihələrdəki tərəfdaşları adından Azərbaycandakı sosial sərmayə layihələrinə, ümumilikdə, 111 milyon ABŞ dollarından çox vəsait xərcləyib.

# Samuxda ilin taxılı anbarlardadır



**2025-ci ilin məhsulu üçün Samux rayonunun əkinçiləri böyük uğura imza atıblar. Rayonun təsərrüfatlarında, ümumilikdə, 10822,4 hektar taxıl sahəsində biçin işləri uğurla həyata keçirilib. Bu sahələrdən 46688,5 ton məhsul yığılıb, hər hektardan orta məhsuldarlıq 43,1 sentner təşkil edib ki, bu da əvvəlki illərlə müqayisədə əhəmiyyətli artım deməkdir.**

Biçilmiş sahələrin 5292,6 hektarı buğda, 5529,8 hektarı isə arpa əkinləri olub. Yığılan məhsulun 25818,7 tonu buğda, 20869,8 tonu isə arpa olub. Buğda sahələrindən hər hektardan 48,8 sentner, arpa sahələrindən isə 37,7 sentner məhsul götürülüb. Bu göstəricilər kənd əməkçilərinin əzmkarlığını və bölgədə aqrar sahəyə göstərilən diqqətin bariz nümunəsidir.

Samuxun zəhmətsevər adamları yazın və yayın istisinə baxmayaraq səbrlə, böyük zəhmət və fədakarlıqla taxıl biçinini vaxtında və itkisiz başa vurublar. Onların əməyi sayəsində bu il rayonun taxıl anbarları dolub, ölkənin ərzaq təhlükəsizliyi üçün mühüm töhfə verilib.

Qeyd etmək lazımdır ki, yüksək məhsuldarlığın əldə olunmasında vaxtında aparılmış aqrotexniki tədbirlər, müasir texnikalardan səmərəli istifadə, keyfiyyətli toxum materialı və fermerlərin bilik və bacarıqları həlledici rol oynayıb.

Samux rayonunda taxıl biçini rəsmi olaraq başa çatıb və əldə olunan nəticələrlə gələcək illər üçün daha böyük uğurların təməli qoyulub.

***Hm letQ ASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Valyuta ehtiyatları xarici borcdan 15 dəfə çoxdur

**Mərkəzi Bankın məlumatına görə, 2025-ci il iyul ayının 1-dək ölkənin strateji valyuta ehtiyatları ötən ilin müvafiq dövrü ilə müqayisədə 11,4 faiz və ya 7 milyard 931 milyon dollar artaraq 77 milyard 669,5 milyon ABŞ dolları təşkil edib.**



Bu il iyul ayının 1-dək xarici dövlət borcunun səviyyəsi 5010,7 milyon ABŞ dollarına (8518,19 milyon manat) bərabər olub və bu il üzrə proqnozlaşdırılan ÜDM-in 6,6 faizini təşkil edib. Beləliklə, hesabat dövründə Azərbaycanın strateji valyuta ehtiyatları xarici dövlət borcunu 15,5 dəfə üstələyib.

Xatırladaq ki, 2023-cü ildə ölkənin strateji valyuta ehtiyatları xarici dövlət borcundan 10,5 dəfə, 2024-cü ildə isə 13,9 dəfə çox olub.

***Səhifəni hazırladı:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Sənədsiz evlər də dövlət qeydiyyatına alınacaq



(əvvəli 1-ci səhifəfə)

Bu yeniliyi də konkret ifadə edərək bildirək ki, dövlətimizin başçısının daşınmaz əmlakın qeydiyyatına dair 16 iyul 2025-ci il tarixli fərmanı ilə həmin əmlakın qeydiyyatına aid hüquqi təminat və qanunvericilik bazası daha da təkmilləşdirilib. Əmlak Məsələləri Dövlət Xidmətindən ölkə rəhbərinin imzaladığı fərmana əsasən, 100 minə yaxın sənədsiz evin qeydiyyata alınmasının nəzərdə tutulduğu bildirilib. Ən önəmli dəyişikliyin isə yeni tənzimləmələrə uyğun olaraq, yaşayış və bağ evlərinə dair texniki inventarlaşdırma orqanları tərəfindən 2001-ci il yanvarın 1-dək tərtib olunan texniki pasportlar (müvafiq tikililərin yerləşdiyi həyətyanı torpaq sahələrinin ölçüsü göstərildiyi halda) hüquqmüəyyənedici sənədlərin siyahısına əlavə edilib.

Qeyd edək ki, Azərbaycanda, xüsusilə, 1990-cı illərdən etibarən, şəhərsalma proseslərinin genişlənməsi, əhalinin sürətlə artması və miqrasiya səbəbindən çoxsaylı yaşayış sahələri planlaşdırılma və hüquqi sənədləşmə aparılmadan tikilib. Bu vəziyyət Bakı və Abşeron yarımadası ilə bərabər, ölkənin digər iri şəhərləri və rayon mərkəzlərində də müşahidə olunub. Rəsmi məlumata görə, hazırda ölkədə 500 mindən çox sənədsiz ev mövcuddur. Bu evlərin böyük bir hissəsi uzun müddət orada yaşayan vətəndaşlara məxsusdur və sosial baxımdan həssas təbəqələr bu kateqoriyaya daxildir.

Xatırladaq ki, ölkə Prezidentinin 13 yanvar 2015-ci il tarixli müvafiq fərmanı ilə təsdiq edilən siyahı "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanun qüvvəyə minənədək mövcud olan tikililər üçün hüquqi əsas yaratsa da, bəzi hallar istisna olunurdu. Lakin 2015-ci il oktyabrın 30-da həmin qanuna edilən əlavə dəyişikliklərlə bu proses daha da təkmilləşdirildi.

Nəhayət, son dəyişikliklərlə sözügedən siyahıya yenidən baxılması və onun daha da genişləndirilməsi artıq yüz minlərlə vətəndaşın yaşadığı evlərin hüquqi status qazanmasına imkan verir. Bu qərar, eyni zamanda, təkcə sosial ədalətin bərpası baxımından deyil, həm də ölkənin daşınmaz əmlak bazarının tənzimlənməsi və genişlənməsi cəhətdən ciddi əhəmiyyət daşıyır. Belə ki, qanunla sənədləşdirilən evlərin rəsmi reyestrə daxil edilməsi, həmin evlərə girov kimi istifadə olunaraq bank kreditlərinə çıxış imkanı yaradılması və bununla da daşınmaz əmlak dövriyyəsinin artırılması qarşıda önəmli vəzifə durur.

Mütəxəssislərin qiymətləndirməsinə görə, yeni hüquqi mexanizmlərin tətbiqi nəticəsində ilkin mərhələdə 100 minə yaxın sənədsiz evə çıxarış verilməsi mümkün olacaq. Bu isə ölkədə on minlərlə ailənin sosial rifahına bilavasitə təsir edəcək, onların hüquqlarını qorumaqla yanaşı, dövlət və bələdiyyə orqanları ilə münasibətlərini də rəsmiləşdirəcək.

Burada mühüm nüanslardan biri də prosesin şəffaf və vətəndaş yönümlü həyata keçirilməsi məsələsidir. Ona görə də hazırda müvafiq qanunun tələbinə əsaslanılaraq Əmlak Məsələləri Dövlət Xidməti, yerli icra hakimiyyətləri, bələdiyyələr və digər aidiyyəti qurumlar tərəfindən bu sahədə səmərəli əməkdaşlıq mexanizmlərinin qurulması, bununla da mürəkkəb bürokratik əngəllərin qarşısını alınması diqqətdə saxlanılır.

Daşınmaz əmlakın leqallaşdırılması prosesi ölkənin qeyri-neft sektorunun inkişafına da dolayısı ilə töhfə verəcək. Rəsmi çıxarış alan evlərin bazarda dövriyyəyə çıxarılması, onların satılması, icarəyə verilməsi və bank kreditləri üçün təminat vasitəsi kimi istifadə olunması mümkün olacaq. Bu da, öz növbəsində, daşınmaz əmlak bazarının aktivliyini artıracaq, qiymətlərin daha real və tənzimlənmiş səviyyədə formalaşmasına səbəb olacaq.

Eyni zamanda, leqallaşdırılmış evlərə görə, dövlət büdcəsinə vergi daxilolmaları da artacaq. Beləliklə, bir tərəfdən vətəndaş hüquqları qorunacaq, digər tərəfdən isə iqtisadi dövriyyə və dövlət gəlirləri stimullaşdırılacaq. Bu, həm də cəmiyyətdə sosial sabitliyə və ictimai məmnunluğa müsbət təsir göstərən strateji addım kimi dəyərləndiriləcək.

Ekspertlərin sözlərinə görə, sənədsiz evlərin leqallaşdırılması prosesi, eyni zamanda, şəhərsalma və infrastruktur inkişafı ilə uyğun şəkildə aparılmalıdır. Vahid elektron informasiya bazasının yaradılması, ərazilərin təyinatı, yol, su, elektrik, kanalizasiya və digər infrastrukturun mövcudluğu kimi amillər nəzərə alınaraq, planlı yanaşma formalaşdırılmalıdır. Bu sahədə rəqəmsal texnologiyaların tətbiqi, coğrafi informasiya sistemlərinin istifadəsi və pilot layihələrin həyata keçirilməsi də diqqətdə saxlanılmalıdır.

Sənədsiz evlərin leqallaşdırılması həm də hüquqi dövlətin təməl prinsiplərinin qorunması, vətəndaşların mülkiyyət hüququnun təmin olunması baxımından önəmli addımdır. Bu proses sosial ədalətin təmin olunması, illərlə əziyyət çəkmiş minlərlə insanın mülkiyyətinin dövlət tərəfindən tanınması baxımından önəm daşıyır. Vətəndaş cəmiyyəti nümayəndələri və ekspertlər tərəfindən bu istiqamətdə atılan addımlar yüksək qiymətləndirilir və sözügedən siyasətin ardıcıl həyata keçirilməsinin zəruriliyi xüsusi vurğulanır.

Beləliklə, dövlətimizin başçısının imzaladığı son fərmanla ölkəmizdə uzun müddət müzakirə olunan və ciddi sosial-iqtisadi əhəmiyyət daşıyan sənədsiz evlərin leqallaşdırılması prosesi artıq hüquqi reallığa çevrilir. Bu qərar yüz minlərlə ailənin hüquqlarını qorumaqla yanaşı, daşınmaz əmlak bazarını canlandırır, vergi bazasını genişləndirir və şəhərsalmanın sistemli şəkildə inkişafına təkan verir. Ən önəmlisi isə budur ki, dövlət vətəndaşının yanında olduğunu bir daha təsdiqləyir və sosial ədaləti gerçəkləşdirmək istiqamətində ardıcıl siyasətini davam etdirir.

Beləliklə, Azərbaycanda uzun illərdir ki, ciddi narahatlıq doğuran sənədsiz evlərin leqallaşdırılması prosesi 2025-ci ildə yeni və əhəmiyyətli mərhələyə daxil olub. Rəsmi məlumatlara görə, Azərbaycan üzrə 500 mindən çox sənədsiz ev qeydə alınıb. Onların əksəriyyəti 1990-cı illərdən sonra şəhərətrafı ərazilərdə və bəzi kənd yaşayış məntəqələrində fərdi şəkildə tikilib. Bu evlərin inşası zamanı əksər hallarda müvafiq icazə sənədləri – tikinti pasportları, torpaq təyinatı və sərhədlərin təsdiqi, memarlıq planlaşdırma sənədləri alınmayıb. Məsələn, Bakı şəhərinin Sabunçu, Suraxanı və Binəqədi rayonlarında, eləcə də Sumqayıt, Xırdalan, Gəncə və Mingəçevir kimi şəhərlərdə bu cür minlərlə ev qeydə alınıb.

Təkcə Abşeron rayonunun Saray, Xırdalan və Masazır qəsəbələrində on minlərlə sənədsiz evin olduğu bildirilir. 2019-cu ildə Əmlak Məsələləri üzrə Dövlət Komitəsinin apardığı ilkin monitorinqə əsasən, paytaxtın kənar yaşayış massivlərində yerləşən evlərin 60 faizinin mülkiyyət sənədinin olmaması da vurğulanır.

***V.BİNYATOĞLU***
***XQ***

## Ekspert rəyi



**Samir HEYDƏROV,**
**iqtisadçı-ekspert**

Sənədsiz evlərin hüquqi tanınması gələcəkdə şəhərsalma sahəsində daha planlı inkişafı da zəruri edir. Hökumət artıq 2025-ci ilin sonuna qədər daşınmaz əmlak reyestr sisteminin rəqəmsallaşdırılmasını hədəfləyir. Rəqəmsal xəritələşdirmə, coğrafi informasiya sistemləri və "ağıllı" reyestr platformasının bu prosesi idarə etmək üçün əsas vasitələr olacağı nəzərdə tutulur.

Vətəndaş cəmiyyətinin nümayəndələri bu prosesi sosial ədalətin bərpası kimi dəyərləndirir. Onların fikrincə, dövlətin bu addımı hüquqi dövlətdə insan hüquqlarının təminatı baxımından mühüm mərhələdir. Başqa sözlə, sənədsiz evlərə çıxarış verilməsi insanın mülkiyyət hüququnun tanınmasıdır. Bu, həm də ölkəmizdə sosial sabitliyə və ictimai rifaha xidmət edən fundamental yanaşmadır.

Beləliklə, dövlətimizin başçısının barəsində danışılan son fərmanı əmlak münasibətlərində keyfiyyət dəyişikliyinə yol açacaq, uzunmüddətli proseslərin hüquqi əsasını möhkəmləndirəcək. Sənədsiz evlərin sahiblərinə mülkiyyət hüquqlarını rəsmiləşdirmək imkanı yaradılması isə ölkə iqtisadiyyatına müsbət təsir edəcək. Belə ki, sənədləşdirilən evlər artıq ipoteka, bank krediti, sığorta və digər kommersiya məqsədləri üçün istifadə oluna biləcək. Nəticədə qiymətləndirmə bazarı, sığorta sektoru və vergi daxilolmaları genişlənəcək.

Yeri gəlmişkən, burada bir məqamı da qeyd etmək istərdim. Belə ki, kənd təsərrüfatı təyinatlı sahələrdə qeyri-rəsmi ev tikən yüz minlərlə insan həmin torpaqların statusunun dəyişdirilərək orada yaşayış sahəsi kimi tanınmasını gözləyir. Bu, kommunal xidmətlərin rəsmiləşdirilməsi və dövlət nəzarətinin artırılması baxımından da mühüm önəm daşıyır.

Fikrimcə, sənədləşdirmə evlərin bazar dəyərinə də ciddi təsir göstərəcək. Belə ki, sənədsiz evlər rəsmiləşdirildikdən sonra onların dəyəri artacaq və əmlak bazarında ciddi canlanma yaranacaq. Bu da bazarın genişlənməsi və yeni oyunçuların meydana çıxması üçün mühüm imkan yaradacaq.

Fərman elektron xidmətlərin inkişafı baxımından da əhəmiyyətlidir. Belə ki, 15 gün ərzində müraciətlərə cavab verilməsi tələbi bürokratik əngəlləri azaldacaq, xidmət keyfiyyətini artıracaq və rəqəmsal idarəetməni gücləndirəcək. Bu isə vahid və şəffaf əmlak reyestrinin formalaşmasına gətirib çıxaracaq.

Bu prosesdə vətəndaşlarla yanaşı, dövlətin də müəyyən qazancı olacaq. Belə ki, hər il minlərlə evin özəlləşməsi ilə dövlət büdcəsinə milyonlarla vəsait daxil olacaq. Sənədsiz evlər rəsmiləşdirildikdən sonra əmlak və ya torpaq vergisi dövlət büdcəsinə daxil ediləcək. Bu qərarın başqa bir müsbət tərəfi isə ondan ibarətdir ki, evlər sənədləşdikdən sonra əmlak sahibləri asanlıqla öz mülkləri üzərində qeydiyyata düşə, kommunikasiya xətlərinə qoşula biləcək.

# Kazino fəaliyyəti və turizmin iqtisadi səmərəsi

**Prezident İlham Əliyev Xəzər dənizinin ölkəmizə mənsub olan bölməsində süni torpaq sahələrində kazino oyunlarının təşkili ilə bağlı bir sıra mühüm qanunvericilik dəyişikliklərini təsdiqləyib. Bu yeniliklər həm Cinayət, İnzibati Xətalar və Mülki məcəllələri, həm də "Reklam haqqında", "Lisenziyalar və icazələr haqqında", "Dövlət rüsumu haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" və "Xəzər dənizinin Azərbaycan Respublikasına mənsub olan bölməsində süni torpaq sahələrinin yaradılması haqqında" qanunlara əlavə edilib. Hökumətə verilən tapşırığa əsasən, 6 ay müddətində bu sahədə qabaqcıl beynəlxalq təcrübəyə əsaslanan normativ hüquqi aktların hazırlanaraq dövlət başçısına təqdim edilməsi planlaşdırılır.**



Nəzərdə tutulan dəyişikliklərlə yaranan imkanlar Azərbaycanın iqtisadi və sosial həyatında yeni bir mərhələnin başlanğıcı ola bilər. 1998-ci ildən etibarən Azərbaycanda kazinoların fəaliyyəti tamamilə dayandırılmışdı. Lakin bu qadağa qumar həvəsinin qarşısını tam ala bilmədi. Ölkədə bu sahəyə maraq göstərən kifayət qədər böyük bir kütlə mövcuddur və bu insanlar uzun illərdir ki, qumar ehtiyaclarını xaricdə – əsasən də Gürcüstan, Kipr və Monteneqro kimi ölkələrdə ödəyirlər. Gürcüstan kazinolarının ümumi gəlirlərinin, təxminən, 20 faizinin Azərbaycan vətəndaşlarının hesabına formalaşması faktı bu sahənin ölkə daxilində böyük potensiala malik olduğunu göstərir.

Yeni hədəflərin iqtisadi əsaslandırılması və onun strateji məqsədləri aydındır. İlk növbədə, Azərbaycan vətəndaşlarının qumar ehtiyaclarını ölkə daxilində, nəzarətli və şəffaf mühitdə ödəməsinə şərait yaradılacağı nəzərdə tutulur. Bu isə həm vətəndaşların təhlükəsizliyini təmin edəcək, həm də ölkədən çıxan valyuta axınının qarşısını alacaq. İkincisi, kazinoların fəaliyyətindən dövlət büdcəsinə daxilolmalar – lisenziyalaşdırma, rüsumlar, vergilər və digər iqtisadi təsirlər vasitəsilə ciddi maliyyə resursları əldə ediləcək.

Eyni zamanda, bu addımın regionda turizmin inkişafına da töhfə verəcəyi proqnozlaşdırılır. Digər tərəfdən, süni torpaq sahələrində yaradılacaq kazino mərkəzləri, həmçinin əyləncə və xidmət infrastrukturunun inkişafı Xəzər dənizi sahilini beynəlxalq səviyyəli turizm istiqamətinə çevirə bilər. Qeyd edək ki, dünyanın bir çox ölkələrində – Sinqapurda Sentosa adasında, Makao, Monako və Las-Veqas kimi mərkəzlərdə kazino və oyun biznesi turizm və xidmət sektorunun əsas lokomotivinə çevrilib.

Qeyd edək ki, Azərbaycan bu prosesə hüquqi mexanizmlərlə tam tənzimlənmiş bir şəkildə daxil olmağı planlaşdırır. Məhz bu səbəbdən qanunvericilik bazasında geniş dəyişikliklər aparılır. Burada əsas məqsədlərdən biri də çirkli pulların yuyulması, dələduzluq, qeyri-qanuni əməliyyatlar və sosial fəsadların qarşısını almaqdır. Hazırlanacaq normativ aktlar vasitəsilə qumar sektorunda şəffaflıq, lisenziyalaşdırma mexanizmləri və vergi tənzimləmələri tam şəkildə müəyyənləşdiriləcək.

Onlayn qumar oyunlarının yaratdığı təhlükələr də bu kontekstdə xüsusi diqqətə layiqdir. Azərbaycanda kazinoların olmaması səbəbindən çox sayda insan nəzarətsiz və qeyri-qanuni onlayn platformalara üz tutur. Bu, onların maddi zərərə uğraması ilə yanaşı, şəxsi məlumatların sızması, dələduzluq və digər fəsadlarla da nəticələnir. Hüquqi əsaslarla və dövlət nəzarəti altında fəaliyyət göstərəcək kazinolar bu boşluğu doldurmaqla riskləri minimuma endirə bilər.

Əlbəttə, belə bir qərarın həyata keçirilməsi təkcə iqtisadi və hüquqi mexanizmlərlə məhdudlaşmır. Burada sosial məsuliyyət də mühüm rol oynayır. Qumar oyunlarının ictimai sağlamlığa təsiri, asılılıq riski və ailə münasibətlərinə mənfi təsirləri nəzərə alınaraq, profilaktik və maarifləndirici tədbirlər də paralel şəkildə həyata keçirilməlidir. Dünyanın inkişaf etmiş ölkələrində bu sahədə qəbul olunmuş "məsuliyyətli oyun" prinsipləri – yaş məhdudiyyətləri, sərhədlərin qoyulması və psixoloji dəstək mexanizmləri Azərbaycanda da tətbiq olunmalıdır.

Xəzər dənizinin ekoloji cəhətdən həssas bölgə olduğunu da unutmaq olmaz. Süni torpaq sahələrinin yaradılması və üzərində iri infrastruktur layihələrinin həyata keçirilməsi prosesində ətraf mühitin qorunması məsələsi diqqət mərkəzində saxlanılmalıdır. Bu baxımdan, layihənin həyata keçirilməsi zamanı ekoloji monitorinq və davamlılıq prinsiplərinə ciddi əməl olunması da zəruridir.

Prezident İlham Əliyevin imzaladığı yeni qanunvericilik dəyişiklikləri isə Azərbaycan üçün həm iqtisadi, həm də sosial cəhətdən yeni imkanlar açır. Bu qərar və onun düzgün icrası sayəsində ölkəmiz həm daxili turizmi stimullaşdıra, həm də regional əhəmiyyətli oyun və əyləncə mərkəzinə çevrilə bilər. Ən əsası isə bu təşəbbüs Azərbaycanın müasir, açıq və tənzimlənən iqtisadi modelə əsaslanan inkişaf yolunda atdığı növbəti irimiqyaslı addımdır.

Qeyd olunan məqamları nəzərə alsaq, görərik ki, kazino sənayesinin yaradılması bir çox aspektlərdən böyük önəm daşıyır. Belə ki, kazinoların fəaliyyətə başlaması ölkəmizdən xaricə çıxarılan vəsaitlərin azalmasına səbəb olacaq, üstəlik iqtisadi inkişafa da təkan verəcək. Nəticədə həm respublikamızdan xarici ölkələrin kazinolarına axan milyonlar ölkəmizdə qalacaq, həm turizm sektoru inkişaf edəcək, həm də minlərlə yeni iş yerləri yaradılacaq.

Kazino turizminin üstün cəhəti isə ondan ibarətdir ki, bu sahə müxtəlif ölkələrdən çoxlu sayda insanı cəlb edə və onları bir məkanda birləşdirə bilir. Kazinolar ətrafında sürətlə yeni infrastruktur formalaşır. Kazinoların olduğu sahələrdə təkcə otellər və restoranlar deyil, digər turistik yerlər də inkişaf edir. Yerli restoranlar kazinodan gələn bir çox xarici qonaqları qarşılayır. Üstəlik, əcnəbilər yerli mətbəxi dadmaq imkanı qazanır. Bu, ölkədə turizmin inkişafına daha böyük töhfə verir. Beləliklə, kazino turizmin digər sahələrinin də inkişafını sürətləndirir.

Azərbaycanda kazinoların açılması dövlət büdcəsinə əlavə vergi gəlirləri gətirə bilər. Qumar biznesi lisenziyalaşdırılıb dövlətin tam nəzarəti altına alındıqdan sonra, həm lisenziya haqları, həm də dövriyyədən alınan vergilər vasitəsilə ciddi maliyyə vəsaiti toplamaq mümkündür. Bu vəsaitin bir hissəsi sosial layihələrin maliyyələşdirilməsinə, infrastrukturun yaxşılaşdırılmasına və digər prioritet sahələrin inkişafına yönəldilə bilər.

***B.VAQİF***
***XQ***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 225** **Bakı şəhəri, 28 iyul 2025-ci il**

**Büdcə təşkilatlarında mühasibat uçotunun elektron formada aparılması mərhələlərinin müəyyən edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 7 mart tarixli 154-VIIQD nömrəli Qanununun tətbiqi və "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 7 fevral tarixli 192 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 19 aprel tarixli 375 nömrəli Fərmanının 2.2-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Büdcə təşkilatları tərəfindən "e-mühasibat" informasiya sistemində yerləşdirilmiş mühasibat uçotunun aparılmasını təmin edən proqram təminatı vasitəsilə mühasibat uçotunun elektron formada aparılması aşağıdakı mərhələlərdə həyata keçirilsin:

**1.** Tabeli təşkilatı (təşkilatları) olmayan büdcə təşkilatları – 2027-ci il yanvarın 1-dən.

**2.** Birləşdirilmiş (konsolidə edilmiş) maliyyə hesabatlarını tərtib edən büdcə təşkilatları – 2028-ci il yanvarın 1-dən.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 226** **Bakı şəhəri, 29 iyul 2025-ci il**

**"Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Nazirlər Kabinetinin bəzi qərarlarında dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2024-cü il 29 noyabr tarixli 78-VIIQD nömrəli Qanununun tətbiqi və "Uşaq hüquqları haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 24 avqust tarixli 761 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 24 dekabr tarixli 262 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 14 mart tarixli 125 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 4, maddə 791 (Cild I); 2024, № 11, maddə 1263, № 12 (II kitab), maddə 1440) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan tibb müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.26-1-ci yarımbənd əlavə edilsin:

"3.1.26-1. uşaqlara xidmət göstərilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər"i nəzərə almaq;".

**2.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "İlk peşə-ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 29 dekabr tarixli 359 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 26 fevral tarixli 65 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 2, maddə 361 (Cild I); 2024, № 2, maddə 227, № 3, maddə 346) aşağıdakı dəyişikliklər edilsin:

2.1. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

2.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan peşə təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. Peşə təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**3.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nin və "Azərbaycan Respublikası Nazirlər Kabinetinin dəyişiklik edilmiş bəzi qərarlarının siyahısı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2011-ci il 14 yanvar tarixli 7 nömrəli Qərarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2019-cu il 13 may tarixli 219 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 5, maddə 953 (Cild I); 2024, № 3, maddə 347) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 7-ci hissə aşağıdakı redaksiyada verilsin:

"7. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

3.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan orta ixtisas təhsili müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 5.7-1-ci bənd əlavə edilsin:

"5.7-1. Orta ixtisas təhsili müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**4.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 22 may tarixli 194 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 273 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1003 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161) aşağıdakı dəyişikliklər edilsin:

4.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

4.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan uşaq evləri sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.3-1-ci yarımbənd əlavə edilsin:

"3.1.3-1. uşaqlara sosial xidmət göstərilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər"i nəzərə almaq;".

**5.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi və "Ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 13 avqust tarixli 207 nömrəli Qərarının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 30 iyul tarixli 274 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 1004 (Cild I); 2024, № 2, maddə 230, № 10, maddə 1161) aşağıdakı dəyişikliklər edilsin:

5.1. 4-cü hissə aşağıdakı redaksiyada verilsin:

"4. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

5.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ailə tipli kiçik qrup evinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.3-1-ci yarımbənd əlavə edilsin:

"3.1.3-1. uşaqlara sosial xidmət göstərilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər"i nəzərə almaq;".

**6.** "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2022-ci il 6 avqust tarixli 286 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2022, № 8, maddə 975 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

6.1. 2-ci hissə aşağıdakı redaksiyada verilsin:

"2. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

6.2. həmin Qərarla təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan sosial xidmət müəssisələrinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 3.1.2-1-ci yarımbənd əlavə edilsin:

"3.1.2-1. uşaqlara sosial xidmət göstərilərkən Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər"i nəzərə almaq;".

**7.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 299 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 719) ilə təsdiq edilmiş "Dövlət tərəfindən yaradılan açıq və qapalı tipli xüsusi təlim-tərbiyə müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 7.8-1-ci bənd əlavə edilsin:

"7.8-1. Müəssisədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

**8.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 13 iyun tarixli 300 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2024, № 6 (II kitab), maddə 720) ilə təsdiq edilmiş "Dövlət və bələdiyyə tərəfindən yaradılan ümumi təhsil müəssisəsinin Nümunəvi Nizamnaməsi"nə aşağıdakı məzmunda 6.8-1-ci bənd əlavə edilsin:

"6.8-1. Ümumi təhsil müəssisəsində Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2025-ci il 10 mart tarixli 68 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət və qeyri-dövlət uşaq müəssisələrində göstərilən xidmətlərin keyfiyyətinə dair Tələblər" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 171 nömrəli Qərarı ilə təsdiq edilmiş "Təhsil müəssisələrinin tikintisinə, maddi-texniki təchizatına dair vahid normalar, ümumi sanitariya-gigiyena tələbləri, şagird yerləri ilə təminat normativləri" nəzərə alınmaqla ona zidd olmayan hissədə tətbiq edilir.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 227** **Bakı şəhəri, 29 iyul 2025-ci il**

**"Qovlar şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Qovlar şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin (əlavə olunur).

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

**Qeyd: Qərara edilmiş əlavələrin tam mətni ilə www.nk.gov.az və www.xalqqazeti.az saytlarında tanış ola bilərsiniz.**

*Günün həyəcanı*

# Əhali artımında enmələr və onun səbəbləri



**Qlobal səviyyədə müşahidə olunan demoqrafik transformasiyaların mühüm istiqamətlərindən biri doğum səviyyəsinin azalma tendensiyasıdır. Əvvəllər, əsasən, inkişaf etmiş Qərb cəmiyyətlərinə xas bu demoqrafik meyilin təsir dairəsinə Azərbaycan da daxil olub.**

Dünya üzrə doğuşun ölümə nisbətinin azalması əhali artımı tempinin zəifləməsinə və demoqrafik strukturun dəyişməsinə səbəb olur. Sosioloji və psixoloji amillər, mənzil əlçatanlığının zəifliyi, artan kirayə haqqı, uşaqların böyüdülməsi və təhsil xərcləri gəncləri daha ehtiyatlı qərarlar qəbul etməyə sövq edir. Eyni zamanda, müharibələr, terror hücumları və iqtisadi böhranlar ailələrin uşaq sahibi olmaq qərarını təxirə salır.

2025-ci ilin ilk 3 ayı ərzində Ədliyyə Nazirliyinin qeydiyyat şöbələri tərəfindən 22 min 119 doğulan körpə qeydə alınıb və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə bu göstərici azalaraq 9,7-dən 8,8-ə düşüb. 2019-cu ildən etibarən doğulan körpələrin sayı və hər 1000 nəfərə düşən doğum səviyyəsi davamlı olaraq azalmaqdadır. 2019-cu ildə 141,2 ; 2020-ci ildə 126,6; 2021-ci ildə 112,6; 2022-ci ildə 122,8; 2023-cü ildə isə bu say 112,6 nəfər olmuşdur. 2024-cü ilin yanvar–oktyabr aylarında 102,3 min körpənin doğumu qeydə alınmışdır.

İlin sonuna qədər proqnozlaşdırılan yekun doğum sayı təxminən 110 civarında olsa da, bu 2019-cu illə müqayisədə 30 mindən çox azalma deməkdir. 2025-ci ilə dair ilkin təhlillər və əvvəlki illərin dinamikasına əsaslanan statistik proqnozlar göstərir ki, doğum səviyyəsində azalma tendensiyası davam edə bilər.

***Sosioloq Elçin Bayramlı "XQ"-yə açıqlamasında bu tendensiyanı belə şərh etdi:***

– Ölkədə son 10 ildə uşaq doğumu 40 faiz azalaraq kəskin həddə çatıb. Boşanmaların artması bütövlükdə cəmiyyətimizin, xalqımızın yenilənməsini zəiflədir. Yəni əhalinin xüsusi çəkisində uşaqların payı aşağı düşür, yaşlı nəslin payı isə artır. Sözügedən proses ciddi bir demoqrafik faciəyə və milli genofondumuzun məhvinə aparmaqla, eyni zamanda, strateji təhlükəsizlik məsələsini formalaşdırır.

Uşaq doğumunun azalmasının əsas səbəbləri sırasında sosial-iqtisadi vəziyyət və mənəvi deqradasiya dayanır. Ailə qurmaq üçün ev olmalıdır ki, bunu da almaq mümkün deyil. İkinci bir tərəfdən işsizlik və yoxsulluq problemi ciddi nüanslardır. Belə problemlər qurulan mövcud ailələrdə uşaq doğulmasının sayını azaldır. Ağır sosial vəziyyətdə əksər gənclər 1 uşaqlı ailə modelinə keçməyə üstünlük verirlər. Azərbaycanda çoxuşaqlı ailə arxa plana atılıb, təkuşaqlı və maksimum halda ikiuşaqlı ailə modeli yaranıb. Əhalinin qocalması ilə yanaşı, gələcəkdə əhalinin məhsuldar qüvvələri də azalacaq. Gənclərin azalması və yaşlı nəslin çoxalması iqtisadiyyata da mənfi təsir göstərəcək. Belə olan halda əksəriyyət sosial qağıya möhtac duyur. Bu isə dövlətin iqtisadi resurslarını, işçi qüvvəsini zəiflədir, sosial ödənişlərini artırır.

Ailələrə sosial dəstək proqramı həyata keçirilməlidir. Bununla da ailə quranlara dövlət səviyyəsində müəyyən həcmdə ev və işlə bağlı dəstək göstərilməlidir. Gənclərə uzunmüddətli faizsiz kreditlərlə ev verilməlidir. Bu gün bir millətin davamlılığı üçün ailələrdə minimum 3 uşaq olmalıdır. Bir çox ölkələrin təcrübəsi göstərir ki, bu vəziyyət müəyyən bir həddə gəldikdən sonra onun qarşısını almaq mümkün olmur. Məsələn, bəzi Avropa ölkələri yüksək məbləğdə ailələrə dəstək versələr də, uşaq sayı artmır. Yəni müəyyən həddi keçdikdən sonra prosesi geri qaytarmaq da çətin olur.

***Sosioloq Yusif Nəbiyev isə doğum səviyyəsinin azalmasını geniş struktur və mədəni dəyişikliklərin nəticəsi kimi dəyərləndirdi:***

– Bunun əsas səbəbləri arasında isə iqtisadi qeyri-sabitlik, qadınların təhsil və karyera prioritetlərinin dəyişməsi, əmək bazarında daha aktiv rol oynamağa başlamaları, gənclərin ailə qurmağa və uşaq böyütməyə dair motivasiyalarının azalması, çox uşağı sağlam tərbiyə etmək və böyütməyin daha çətin görünməsi kimi amillər yer alır. Sosioloq Entoni Qiddensin "transformasiya ailəsi" anlayışına görə, müasir cəmiyyətdə ailə institutunun funksiyası dəyişməkdədir.

Qısaca desək, övlad sahibi olmaq artıq şəxsi seçimin nəticəsidir, ictimai vəzifə kimi görülmür. Əhalinin yaşlanması ilə bəzi sosial problemlər ortaya çıxa bilər. Gənc işçi qüvvəsi azalır, pensiya sistemi yüklənir. Sayı azalmaqda olan gənc nəsilin vergiləri ilə formalaşan pensiya büdcəsi sayı artmaqda olan yaşlı nəsli maliyyələşdirməkdə aciz qalır.

Bu o deməkdir ki, işləyənlər azalır, pensiya alanlar çoxalır. Bu gedişat gənc nəsli kiçilməkdə olan bütün ölkələrin ortaq problemi olaraq üzə çıxır. Keçmişi unutmuş, gələcəyi isə zamanın ümidinə buraxıb işləyirik. Yalnız düzgün demoqrafik təşviqlər, çevik iş rejimləri və sosial rifah kimi amillər doğum səviyyəsini artırmasa da, ümidsizliyi azaldır ki, bu da zamanla doğum səviyyəsini yenidən yüksəldər.

***Şahanə ZİYAD,***
***BDU jurnalistika fakültəsinin tələbəsi***

# Ana dilimiz – diriliyimiz

**Milli Məclisin deputatı Səttar Möhbalıyev qarşıdan gələn Azərbaycan əlifbası və Azərbaycan dili günü ilə bağlı duyğu və düşüncələrini "XQ" üçün açıqlayıb. O deyib ki, ana dilimizin qorunması və zənginləşdirilməsi məqsədilə ulu öndər Heydər Əliyevin müəyyən etdiyi strateji kurs bu gün də mühüm istiqamətlərdən biri olaraq qalır.**



Sonra deputat Ümummilli liderin respublikaya rəhbərlik etdiyi hər iki tarixi dövrdə ana dilimizin qorunması və inkişaf etdirilməsi məqsədilə atdığı addımları xatırladıb: "Ulu öndər deyirdi: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilirik". Hələ sovet dönəmində Heydər Əliyev xalqın öz müstəqilliyinə nail olması üçün vacib amillərdən biri olan milli ideologiyanın formalaşdırılması üzərində çalışarkən, bu məsələdə ana dilinin həlledici rolunu düzgün qiymətləndirir və onun qorunması üçün gərəkən addımları atırdı. Məhz özünün gərgin səyləri nəticəsində Ulu öndər keçmiş SSRİ-də ögey münasibət bəslənilən, sıxışdırılan Azərbaycan dilini bütünlüklə unudulmaq və məhv olmaq təhlükəsindən xilas etdi. Heydər Əliyev dühasının zəngin təcrübəsi, yüksək intellekti, milli mədəniyyətimizə və mənəviyyatımıza dərindən bələd olması və bağlılığı sayəsində ötən əsrin 60-cı illərinin sonlarından başlayaraq müəyyən edilən siyasi kurs doğma dilimizin günbəgün saflaşmasına, zənginləşməsinə və inkişaf etməsinə şərait yaratdı".

Fikirlərini davam etdirən millət vəkili bildirib ki, Ulu öndər Azərbaycan respublikasının rəhbəri olduğu ilk illərdən ana dilinin sosial-siyasi, ideoloji problemləri ilə bilavasitə məşğul olub və bu sahədə qısa müddət ərzində misilsiz nəticələr əldə edib: "Hələ Sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə Heydər Əliyev həqiqətən tarixi əhəmiyyət kəsb edən vacib məsələlərin həllinə, o cümlədən Azərbaycan dilinin qorunub-saxlanmasına, inkişafına və nəhayət, dövlət dili statusu almasına nail olub. Məhz onun misilsiz səyləri nəticəsində ana dilimizin bu ali statusu Azərbaycan SSR-in Konstitusiyasında və digər müvafiq qanunvericilik aktlarında öz əksini tapıb. Bununla da Moskvanın kəskin etirazlarına baxmayaraq, respublikamızda rus dili ilə yanaşı, Azərbaycan dilinin də rəsmiliyi təmin edilib. Ümummilli lider Heydər Əliyevin keçən əsrin 70-80-ci illərində fəal və ardıcıl şəkildə həyata keçirdiyi dil siyasəti Azərbaycanda milli özünəqayıdış, milli özünüdərk və milli azadlıq ruhunu yüksəltdi".

S.Möhbalıyev Azərbaycan dilinə dövlət dili statusunun verilməsini Ümummilli liderin xalq qarşısında olan ən böyük tarixi xidmətlərindən biri kimi dəyərləndirib. O deyib ki, Ulu öndərin səyləri ilə respublikada Azərbaycandilli təhsilin və maarifin inkişafına xüsusi qayğı göstərilib, bir sıra digər sovet respublikalarından fərqli olaraq, Azərbaycanda gəncliyin ana dilində təhsilinə üstünlük verilib. "Azərbaycan dilində mətbuatın, elm və mədəniyyətin tərəqqisi üçün mühüm tədbirlər həyata keçirilib, Azərbaycanın böyük yazıçıları öz əsərlərini, demək olar ki, yalnız ana dilində yazıb, Azərbaycan Yazıçılar İttifaqının aparıcı mətbuat orqanları Azərbaycan dilində nəşr edilib. Ən əsası, Ümummilli liderimiz özü bütün rəsmi və qeyri-rəsmi tədbirlərdə Azərbaycan dilində danışmaqdan çəkinməyərək, ana dilimizə verdiyi yüksək dəyəri hər zaman vurğulayıb, dilimizin ictimai-siyasi mövqeyinin yüksəlməsinə zəmin yaradıb."

Daha sonra S.Möhbalıyev artıq müstəqillik illərində ana dilimizin qorunması və inkişafı üçün Ulu öndərin atdığı addımların əhəmiyyətini vurğulayaraq bunları deyib: "Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra dil məsələsi yenidən gündəmə gəldi. Ana dilinin böyük təəssübkeşi olan ümummilli lider Heydər Əliyevin şəxsi təşəbbüsü ilə 31 oktyabr – 11 noyabr 1995-ci il tarixləri arasında dövlət dili məsələsi Milli Məclisdə müzakirə olundu və yekdilliklə müstəqil Azərbaycan Respublikasının dövlət dili olaraq Azərbaycan dili qəbul edildi. Beləliklə, 12 noyabr 1995-ci ildə qəbul olunan Azərbaycan Respublikasının yeni Konstitusiyasının 21-ci maddəsi Azərbaycan dilini Azərbaycan Respublikasının dövlət dili elan etdi.

Bütün bunlarla yanaşı, Ümummilli lider doğma dilimizi daha yüksək zirvələrə qaldırmaq məqsədilə bir sıra zəruri tədbirlər həyata keçirdi. Ulu öndər Heydər Əliyevin imzaladığı "Azərbaycan dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" 18 iyun 2001-ci il tarixli fərmandan irəli gələn tələblərə uyğun olaraq ölkə ərazisində yaşayan hər kəs, bütün Azərbaycan vətəndaşları doğma dilimizi öyrənməli, bütün dövlət sənədləri bu dildə aparılmalıdır. Ulu öndərin "Azərbaycan əlifbası və Azərbaycan dili gününün təsis edilməsi haqqında" 2001-ci il 9 avqust tarixli fərmanına əsasən hər il avqustun 1-i ölkəmizdə Azərbaycan əlifbası və Azərbaycan dili günü kimi qeyd edilir. Bir mühüm məqamı da qeyd etmək lazımdır ki, 2 yanvar 2003-cü ildə "Azərbaycan Respublikasında dövlət dili haqqında" Azərbaycan Respublikası Qanunu"nun qəbul edilməsi dilimizin inkişafı istiqamətində Ümummilli liderin atdığı daha bir mühüm tarixi addım oldu. Beləliklə, Ulu öndər Azərbaycan dilinin qorunması və inkişaf etdirilməsi kimi tarixi missiyasını bütünlüklə həyata keçirmiş oldu".

Deputat sonda vurğulayıb ki, bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Ulu öndərin əsasını qoyduğu dövlət dili siyasətini müasir dövrün tələblərinə uyğun formatda genişləndirərək, uğurla davam etdirir. "Möhtərəm dövlət başçımız tərəfindən bu xüsusda imzalanmış sərəncam və fərmanların geniş əhatə dairəsi ana dilimizin zənginləşməsinə və tətbiq dairəsinin daha da genişlənməsinə əvəzsiz töhfələr verir. Buna misal olaraq, Azərbaycan dilində əvvəllər çap edilmiş dünya və Azərbaycan ədəbiyyatının ən yaxşı nümunələrinin latın qrafikalı əlifba ilə yenidən nəşr edilməsini təmin edəcək sərəncamı nümunə kimi göstərmək olar. Ölkə Prezidenti cənab İlham Əliyevin 2004-cü il yanvarın 12-də imzaladığı "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" sərəncamı bu sahədə yarana biləcək boşluğu aradan qaldırdı və eyni zamanda da əlifba ilə bağlı ortaya çıxan digər texniki problemləri həll etdi. Öz çıxışlarının birində ölkə Prezidenti İlham Əliyev demişdir: "Bizi millət kimi qoruyub saxlayan məhz dilimiz, ədəbiyyatımız, tariximiz, ənənələrimizdir". Dövlət başçımızın 2018-ci il noyabrın 1-də imzaladığı "Azərbaycan dilinin saflığının qorunması və dövlət dilindən istifadənin daha da təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında" fərman da ölkəmizdə ana dilimizə qayğının ən yüksək səviyyədə olduğunu bir daha təsdiqləyir", – deyə Səttar Möhbalıyev fikirlərini tamamlayıb.

*Ə.ƏLİYEV*
*XQ*

# AMEA-da QİƏT parlamenti baş katibi ilə görüş



**AMEA-nın prezidenti, akademik İsa Həbibbəyli Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı (QDİƏT) Parlament Assambleyasının baş katibi akademik Asəf Hacıyevlə görüşüb.**

Akademik İsa Həbibbəyli AMEA-nın 80 illiyi çərçivəsində görülmüş işlər və nəzərdə tutulan tədbirlər barədə məlumat verərək bildirib ki, dövlət başçısının "Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyinin qeyd edilməsi haqqında" 18 mart 2025-ci il tarixli sərəncamından irəli gələrək həm ölkəmizdə, həm də Türk dünyasının elmlər akademiyaları və akademik elmi təşkilatlarında yubiley təntənəli şəkildə qeyd olunur. Bu tədbirlər çərçivəsində iyun ayında İstanbulda Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı Parlament Assambleyasının keçirdiyi, Təşkilata üzv ölkələrin Elmlər Akademiyaları prezidentlərinin 2-ci toplantısında yubileyin yüksək səviyyədə qeyd olunduğu vurğulanıb. Həmçinin, noyabr ayına planlaşdırılan 80 illik təntənəli yubiley tədbiri, eləcə də 1-ci Türkoloji Qurultayın 100 illik yubileyinə hazırlıq məsələləri barədə danışılıb.

QDİƏT Parlament Assambleyasının baş katibi, akademik Asəf Hacıyev qeyd edib ki, Milli Elmlər Akademiyası mövcud olduğu dövrdə ölkəmizin elmi, ictimai, iqtisadi və mədəni həyatında mühüm rol oynayıb, Azərbaycan alimləri öz kəşfləri, tədqiqatları ilə dünya şöhrəti qazanıblar. Dövlət başçısının yubileylə bağlı sərəncamının AMEA-nın şərəfli tarixinə, Azərbaycan elminə, aliminə və ziyalısına verilən dəyərin ifadəsi olduğunu deyən akademik Asəf Hacıyev bu çərçivədə keçirilən tədbirləri yüksək dəyərləndirib.

Görüşdə, həmçinin bir sıra məsələlərlə bağlı fikir mübadiləsi və müzakirələr aparılıb, xatirə şəkilləri çəkdirilib.

*XQ*

# Türk dünyası mədəni irsinə sahib çıxır



**Mədəni irs obyektlərimizin İslam Dünyası ELM, Təhsil və Mədəniyyət Təşkilatının (ICESCO) siyahılarına daxil edilməsi üçün nominasiya dosyelərinin hazırlanmasına həsr olunmuş ilk seminar uğurla keçib.**

ICESCO-nun Bakıdakı regional ofisində düzənlənən seminarda Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova çıxış edib. O, təlimin İslam, Türk dünyasının zəngin mədəni irsinin qorunması və tanıdılması baxımından xüsusi əhəmiyyət daşıdığını vurğulayıb, seminarın məhsuldar müzakirələr və təcrübə mübadiləsi üçün faydalı platforma olacağına əminliyini ifadə edib.

Qurumun rəhbəri ICESCO ilə sıx əməkdaşlıqdan danışıb və bu istiqamətdə birgə layihələrin, o cümlədən, Qırğızıstanda İssık-Kul gölü sahilində "Ruh Sanat" beynəlxalq mədəni forumun həyata keçirildiyini qeyd edib. Səmərqəndin İslam Dünyasının Mədəniyyət Paytaxtı elan olunması çərçivəsində ICESCO-nun baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə keçirilmiş məhsuldar görüş və Fond ilə ICESCO arasında Anlaşma Memorandumunun imzalanması istiqamətində əldə olunan razılaşmalar barədə də məlumat verilib.

Açılış mərasimində, ICESCO-nun Bakı regional ofisinin direktoru Əbdülhakim əs-Sənan, ICESCO-nun Beynəlxalq Əməkdaşlıq Sektorunun rəhbəri Anar Kərimov, direktor müavini Məryəm Qafar-zadə və İçərişəhər Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi sədrinin müavini Rüfət Mahmud çıxış edərək seminarın əhəmiyyətinə toxunub, iştirakçılara uğurlar arzulayıblar.

Təlim sessiyaları Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Özbəkistandan olan nümayəndə və ekspertlər iştirak edirlər. Burada ICESCO-nun nominasiyalar siyahısına təqdim olunması üçün sənədlərin hazırlanması ilə bağlı nəzəri və praktik biliklər paylaşılır.

*XQ*

# Tələbələr Quba Soyqırımı Memorialında

**Bakı Dövlət Universiteti (BDU), İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənclər Forumunun Avrasiya Regional Mərkəzi, "BDU könüllüləri" təşkilatı və "Əmanət" Şəhid və Qazi Övladlarının Fərdi İnkişafına Dəstək Layihəsinin təşkilatçılığı ilə "Konstitusiya və Suverenlik İli" çərçivəsində Quba tələbələr və şəhid-qazi övladları üçün təşkil olunan yay düşərgəsinin iştirakçıları Quba Soyqırımı Memorial Kompleksini ziyarət ediblər.**




Ziyarət zamanı iştirakçılara 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar, "BDU könüllüləri" təşkilatı və "Əmanət" ...

Ziyarət zamanı iştirakçılara 1918-ci ildə erməni silahlı birləşmələri tərəfindən azərbaycanlılara qarşı törədilmiş kütləvi qırğınlar, bu hadisələrin tarixi və hüquqi aspektləri, həmçinin faciənin miqyasını əks etdirən sənəd və materiallar haqqında ətraflı məlumat verilib.

Memorial kompleksdə qorunub saxlanılan tarixi sənədlər, arxiv materialları, eləcə də insan qalıqları əsasında aparılmış arxeoloji və antropoloji tədqiqatlar nəticəsində hazırlanmış ekspozisiyalar gənclərin bu faciənin Azərbaycan tarixində buraxdığı dərin izlərlə yaxından tanış olmasına şərait yaradıb.

*XQ*

*Qəbələ Beynəlxalq Musiqi Festivalı*

**Heydər Əliyev Fondunun təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyası və "Gilan"ın dəstəyi ilə keçirilən XIV Qəbələ Beynəlxalq Musiqi Festivalı başa çatıb.**

Artıq gözəl ənənəyə çevrilən festival bu dəfə də möhtəşəmliyi ilə musiqisevərlərin diqqətini cəlb etdi. İyulun 24-də başlanan və 6 gün davam edən musiqi bayramında Azərbaycanla yanaşı, Latın Amerikası, Gürcüstan və Litvadan görkəmli musiqi-

# Daha bir sənət təntənəsi tarixə yazıldı



çilər, ifaçılar, tanınmış musiqi kollektivləri iştirak edirdilər. Başlıca özəllik bu idi ki, Qəbələ Beynəlxalq Musiqi Festivalı dahi bəstəkar Üzeyir Hacıbəylinin 140 illik yubileyinə həsr olunmuşdu.

Festivalın davam etdiyi günlərdə musiqisevərlər və Qəbələnin qonaqları Azərbaycan Dövlət Xalq Çalğı Alətləri Orkestri və Fikrət Əmirov adına Əməkdar Kollektiv Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının Xor qrupunun, "Mercadonegro " musiqi qrupunun (Latın Amerikası), "Tbilisi Big Band" orkestrinin (Gürcüstan), "Ciurlionis" kvartetinin (Litva), həmçinin "Gənclərə dəstək" layihəsi iştirakçılarının, Q.Qarayev adına Azərbaycan Dövlət Kamera Orkestri və "Xarıbülbül" muğam qrupunun iştirakı ilə Xalq artisti Nəzakət Teymurovanın, "Detaşe-Sabah" violonçelçilər ansamblının, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası tələbələrinin, tanınmış musiqiçilərin çıxışlarını həvəslə izlədilər.

Festivalın bağlanış mərasimi və yekun konsertində Ü.Hacıbəyli adına Azərbaycan Dövlət Simfonik Orkestrinin iştirakı ilə tamaşaçılara "Viva opera" konsert proqramı təqdim olundu. Konsert görkəmli musiqi xadimləri Vasif Adıgözəlovun 90, Rauf Atakişiyevin 100 illik yubileylərinə həsr olunmuşdu. Xalq artisti Yalçın Adıgözəlovun dirijorluğu ilə keçən konsertin 1-ci hissəsində görkəmli bəstəkar Vasif Adıgözəlovun "Bayram uvertürası", "Piano və orkestr üçün 4 nömrəli konsert", "Qərənfil" romansı, "Çanaqqala 1915" oratoriyasından türkülər və "Bakı haqqında mahnı" səsləndirildi. Solistlər Murad Adıgözəlzadə (piano), Afaq Abbasova (soprano), Selcan Fermor-Hesketh (soprano) və Əvəz Abdulladır (bariton) idi.

Konsertin 2-ci hissəsi Azərbaycan Dövlət Simfonik Orkestrinin bədii rəhbəri və baş dirijoru, Əməkdar artist Fuad İbrahimovun dirijorluğu ilə keçdi. Solistlər Xalq artisti Yusif Eyvazov (tenor), Afaq Abbasova (soprano), Aytac Şıxəlizadə (mezzo soprano), Yusif Eyvazov (tenor) və Əvəz Abdullanın (bariton) ifalarını tamaşaçılar alqışlarla qarşıladılar. Konsertin sonunda bütün solistlər birlikdə C.Verdinin "Traviata" operasından "Brindisi" ifa etdilər.

**P.S.** Musiqi bayramı başa çatdıqdan sonra həmkarlarım Mustafa Dadaşov və Əli Səmədovla söhbətimizdə Qəbələ festivalı barədə təəssüratlar dilə gəldi. Mustafa dedi ki, çox bənzər tədbirlərdə olmuşam, amma hələ bu səviyyədə yüksək təşkilatçılığı ilə seçilən musiqi bayramı görməmişəm. Qəbələdən musiqi sədaları bütün dünyaya yayıldı. Əli isə əlavə edərək bildirdi ki, tədbir həqiqətən də Azərbaycanın mədəni həyatında mühüm rolu var. Klassik musiqi vurğunu olan hər bir insanın səbirsizliklə gözlədiyi bu festival həm də yeni istedadların aşkar edilməsinə, bu sahədə bilik mübadiləsinə xidmət edir. Proqramı həvəslə lentə alıb göstərməyimizə şadıq.

*İlqar HƏSƏNOV,*
*XQ-nin bölgə müxbiri*

**Qəbələ**

# Qayıdış hüququnun mötəbər təsdiqi

**"Qərbi Azərbaycan irsi: Ermənistanda azərbaycanlılara məxsus qəbiristanlıqların sistemli qaydada dağıdılmasının nəticələri və beynəlxalq hüquqi məsuliyyətə dair hesabat və materiallar" kitabının I cildinin Ağcabədidə də təqdimatı keçirilib.**






İştirakçılar əvvəlcə YAP Ağcabədi rayon təşkilatında Qərbi Azərbaycana Qayıdış hərəkatına həsr olunmuş sərgi ilə tanış olublar. Mərasimi giriş sözü ilə açan Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Qərbi Azərbaycanın tarixi-mədəni irsinin bu torpaqlardan qovulmuş soydaşlarımızın əzəli yurdlarına qayıtmaq hüququnun beynəlxalq hüquqla tanınması üçün əsas olduğunu söyləyib.

Sonra azərbaycanlıların öz doğma torpaqlarından deportasiyasına həsr olunmuş "Qərbi Azərbaycan İrsi" tədqiqatlar seriyasından olan videoçarx nümayiş etdirilib. Videoçarxda kitab haqqında ətraflı məlumat verilib. Bildirilib ki, tədqiqatların aparılması üçün bir sıra ölkələrin kitabxanalarında saxlanılan XIX-XX əsrlərə aid hərbi-topoqrafik xəritələrdən, peyk təsvirlərindən istifadə edilib və müasir metodoloji təhlillərlə ərazidə mövcud olan qəbiristanlıqların monitorinqi həyata keçirilib.

Mərasimdə Qərbi Azərbaycan İcmasının Ağcabədi nümayəndəsi Radə Qafarova, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Qarabağ və Şərqi Zəngəzur regional bölməsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Əlizadə Nəcəfov, Qərbi Azərbaycan əsilli rayon sakinləri Rauf Musayev və Kamilə Zamanlı çıxış edərək təqdim edilən nəşrin mövzu aktuallığından, siyasi-hüquqi önəmindən söz açıblar.

Ata-babaları Qərbi Azərbaycandan olan bu insanlar böyüklərdən eşitdikləri ağrılı xatirələrdən danışıblar. Bu çıxışların hər birində ağrılı, kövrək məqamlara toxunulub, təqdimatı keçirilən kitabın məhz belə faktların dünya ictimaiyyətinə, gələcək nəsillərə çatdırılmasında önəmi vurğulanıb.

*XQ*

*Beynəlxalq həyat*

# "Rüsum müharibəsi"ndə "atəşkəs" olacaqmı?



**(əvvəli 1-ci səhifədə)**

Danışıqlarda nə baş verdi? Çinin baş müzakirəçisi, Dövlət Şurası sədrinin müavini Xe Lifen bildirib ki, tərəflər "dərin, açıq və konstruktiv" müzakirələr aparıb və 12 avqustda başa çatacaq 90 günlük tarif pauzasının daha 90 gün uzadılması üzərində işləmək barədə razılığa gəliblər. ABŞ maliyyə naziri Skott Bessent isə deyib ki, bu məsələ müzakirə olunub, lakin yekun qərar prezident Trampın təsdiqindən asılıdır: "Çinli həmkarlarımız bir qədər tələsdilər".

ABŞ tərəfi əlavə olaraq Çinin İran nefti alışları, Rusiyaya ikili təyinatlı texnologiyaların ötürülməsi və istehsal səviyyəsinin qlobal tələbatı aşması kimi məsələlərə dair narahatlığını ifadə edib. Bessent deyib ki, ABŞ strateji sahələrdə – nadir torpaq metallarında, yarımkeçiricilərdə, dərman preparatlarında riskləri azaltmağa çalışır: "Bu balansı necə təmin edə biləcəyimizi müzakirə etdik".

Tariflərin gələcəyi və əsas narahatlıqlar hələ də qalır. Hazırda ABŞ Çin məhsullarına 30 faiz, Çin isə Amerika məhsullarına 10 faizlik rüsumlar tətbiq edir. Apreldə gərginliyin pik nöqtəsində rüsumların üçrəqəmli faizlərə yüksəldilməsi təklifi gündəmə gəlmişdi. Lakin mayda Cenevrədə keçirilən danışıqlarda 90 günlük "rüsum fasiləsi" qərarı ilə münasibətlər nisbətən sabitləşdi. Stokholmda baş tutan son raund isə bu fasilənin uzadılması imkanlarını genişləndirdi. Danışıqlar İsveçin Baş naziri Ulf Kristerssonun dəstəyi ilə baş nazirlik ofisində, 5 saatlıq qapalı görüş formatında keçirildi.

Danışıqların fonunda ABŞ Prezidenti Donald Tramp ÇXR lideri Si Cinpinlə görüşü müzakirə etdiyini bildirdi. "Görüş il sonunadək ola bilər", – deyə Tramp jurnalistlərə bildirib. O, Truth sosial şəbəkəsində "Çinə dəvət almışam, əks halda marağım yoxdur" mesajını paylaşıb. ABŞ nümayəndə heyətinin üzvü Ceymison Qrir bildirib ki, onlar Vaşinqtona qayıdaraq prezidentlə danışacaq və 12 avqust müddətinin uzadılıb-uzadılmayacağını müəyyən edəcəklər.

ABŞ son aylarda Birləşmiş Krallıq, Yaponiya və Avropa İttifaqı ilə tariflərlə bağlı razılaşmalar əldə etsə də, Çinlə münasibətlər hələ də qeyri-müəyyəndir. "Çin çox praqmatik davranır", – deyə Qrir bildirib. Onun sözlərinə görə, müntəzəm görüşlərin davam etməsi danışıqlar üçün əsas yaradır. Asiya Siyasətləri İnstitutunun vitse-prezidenti, ABŞ-ın sabiq ticarət nümayəndəsi Vendi Katler isə xəbərdarlıq edib: "Çin artıq Trampın ilk prezidentliyindən dərs alıb və bu dəfə birtərəfli razılaşmaya razı olmayacaq."

Danışıqlarda tərəflər uzunmüddətli balansın əldə olunması üçün ilkin şəraitin formalaşdığını qəbul edir. ABŞ tərəfi daxili istehsalın gücləndirilməsi, kənd təsərrüfatı və enerji məhsullarının ixracı, habelə ticarət balansındakı kəsirin azaldılmasını prioritet sayır. Çin tərəfindən danışıqların nəticələri barədə konkret detallar verilməsə də, tərəflərin fəal təmas saxlayacaqları və ticarət məsələləri üzrə vaxtında məlumat mübadiləsi aparacaqları təsdiqlənib.

Beləliklə, Stokholm danışıqları ABŞ – Çin ticarət müharibəsində yeni bir "fasilə" mərhələsi yarada bilər. Lakin uzunmüddətli sabitlik üçün qarşılıqlı kompromislər və liderlər səviyyəsində siyasi iradə hələ də əsas amil olaraq qalır. Əgər fundamental məsələlər həll olunmazsa, gələcəkdə yeni ticarət gərginlikləri qlobal iqtisadiyyatı yenidən təhdid edə bilər. Dünya iqtisadiyyatının gələcəyi, böyük ölçüdə bu iki iqtisadi supergücün uzunmüddətli əməkdaşlıq və ya rəqabət yolunu seçməsindən asılı olacaq.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Öncə duracaq, sonra avtomobil!

## *Yaponiyada avtomobil alanın saxlama yeri olmalıdır*

**Yaponiya dünyada avtomobil sənayesinin qabaqcıl ölkələrindən biri olsa da, fərdi avtomobil sahibliyinə dair ciddi və unikal qaydaları ilə seçilir. Bu ölkədə avtomobil almaq istəyən hər kəs ilk növbədə sübut etməlidir ki, həmin avtomobil üçün daimi parkinq yeri mövcuddur. Bu qayda xüsusilə sıx yaşayışlı şəhərlərdə, məsələn, Tokio və Osaka kimi meqapolislərdə daha sərt şəkildə tətbiq olunur.**

### "Parkinq sübutu" olmadan avtomobil almaq qadağandır

Rəsmi adı ilə "shako shomei shō" adlanan bu sənəd – yəni "parkinq sübutu sertifikatı" avtomobilin qeydiyyatı üçün əsas şərtlərdən biridir. Bu sənədi almaq üçün vətəndaş ya özünə məxsus bir parkinq yeri olduğunu göstərməli, ya da kirayələdiyi parkinq yerinin müqaviləsini təqdim etməlidir. Polis orqanları bu məlumatı yoxlayır və yalnız təsdiq olunduqdan sonra avtomobilin qeydiyyatına icazə verilir.

### Qaydaların arxasında nə dayanır?

Bu tələbin məqsədi şəhərlərdə nəqliyyat sıxlığını azaltmaq, qanunsuz parklanmanın və küçələrin tutulmasının qarşısını almaqdır. Yaponiya kimi torpaq resurslarının məhdud olduğu ölkədə ictimai nizam və şəhər infrastrukturunun səmərəliliyi üçün belə tədbirlər olduqca vacib sayılır.



Yerli idarəetmənin bu siyasəti həmçinin insanları şəxsi avtomobilə deyil, daha çox ictimai nəqliyyatdan istifadə etməyə təşviq edir. Bu isə öz növbəsində ətraf mühitin qorunmasına, karbon emissiyasının azaldılmasına və şəhər həyatının keyfiyyətinin yüksəldilməsinə töhfə verir.

### Avtomobil sahibi olmaq – sadəcə, seçim deyil, məsuliyyətdir

Yaponiya qanunvericiliyinə görə, parkinq yerini yalnız yaşadığınız binanın həyətində tapmaq kifayət deyil – həmin yerin avtomobilinizin ölçüsünə uyğun olması və gündəlik istifadəyə yararlı şəraitdə olması da şərtdir. Bu zaman avtomobil sahibləri bəzən yüksək qiymətə parkinq yeri icarəyə götürməyə məcbur olurlar.

Tokio kimi iri şəhərlərdə parkinq yerlərinin qiyməti ayda 300-800 dollar arasında dəyişə bilər. Bəzi mərkəzi rayonlarda bu rəqəm min dolları da keçə bilər ki, bu da avtomobil saxlamağı lüks və düşünülmüş qərara çevirir.

### Avtomobil almaqdan əvvəl plan qurmaq vacibdir

Yaponiyada avtomobil almaq istəyən hər kəs üçün bu qanun bir mesajdır: şəxsi nəqliyyat vasitəsinə sahib olmaq lüks deyil, ciddi planlaşdırma və məsuliyyət tələb edən bir addımdır. Bu sistem nəinki şəhər mühitini nizamlı saxlayır, həm də cəmiyyətin ekoloji və sosial şüurunu gücləndirir.

Bu səbəbdən Yaponiyada avtomobil almaq, sadəcə, bir maliyyə qərarı deyil – o, həm də şəhər həyatına uyğunlaşma və məsuliyyət daşıma aktıdır.

***Hazırladı:***
***S.ELAY***
***XQ***

*Yeni kitablar*

# "Qərbi Azərbaycan folkloru"

**AMEA-nın Folklor İnstitutu Elmi Şurasının qərarı ilə "Qərbi Azərbaycan folkloru" seriyasının IV cildi çap olunub.**




"Elm və təhsil" nəşriyyatında işıq üzü görən kitabdakı materialları müxtəlif illərdə filologiya elmləri doktoru Hikmət Quliyev, filologiya elmləri doktoru Səfa Qarayev və fəlsəfə doktoru, dosent Ləman Vaqifqızı (Süleymanova) toplayıblar. Kitabın elmi redaktoru isə filologiya üzrə fəlsəfə doktoru, dosent Əziz Ələkbərlidir.

Topludakı materiallar Bakı və Naftalan şəhərlərində, Şəki və Goranboy rayonlarında və Türkiyə Cümhuriyyətinin İğdır bölgəsində məskunlaşmış Qərbi Azərbaycan sakinlərindən əldə edilib. Kitab "Mifoloji mətnlər, əfsanə və rəvayətlər", "İnanclar", "Türkəçarələr və bitkilər haqqında məlumat", "Yuxuyozmalar", "Etnoqrafik mətnlər", "Xatirələr", "Nağıllar", "Lətifələr", "Bayatı, nanay və mahnılar", "Ağılar", "Atalar sözləri və deyimlər", "Alqışlar", "Oyun və tamaşalar", "Adlar" bölmələrindən ibarətdir.

Toplanan materiallar zəngin Azərbaycan folklorunun əsas janrlarını əhatə etməklə yanaşı, bölgəyə məxsus yerli variantları, dil və üslub xüsusiyyətlərini, eləcə də spesifik folklor çalarlarını özündə birləşdirir. 20-dən artıq nağıl nümunəsi – "Şahzadə Saleh", "Qəşəmin nağılı", "Atı üç qıçlı Göygöz Kosa", "İlan oğlan Mirzəbəy və şah qızının nağılı" və digərləri həm süjet və motiv baxımından, həm də söyləyicilərinin qoruduğu ənənəvi təhkiyə üslubu ilə diqqət çəkir. Həmin mətnlərin söyləyicilərinə nəzər yetirəndə onların əksəriyyətinin ötən əsrin əvvəllərində Göyçə və Dərələyəz mahalları, Zəngibasar, Qarakilsə və Basarkeçər rayonlarında doğul¬du¬ğu məlum olur. Bu isə tədqiqatçılara əvvəlki dövrün folklor söyləyiciliyi ilə onların xələfləri arasındakı fərqləri görməyə imkan verəcəkdir. Yerli koloritin canlı şəkildə əks olunduğu mətnlər, Azərbaycanın şifahi ənənəsinin qorunması və gələcək nəsillərə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır.

"Qərbi Azərbaycan folkloru" seriyasının növbəti cildi tarixi torpaqlarımızın əzəli sakinlərinin – Qərbi Azərbaycanlıların mənəvi dünyasının, qan yaddaşının və dil-üslub xüsusiyyətlərinin qorunub gələcək nəsillərə çatdırılması baxımından xüsusi əhəmiyyət daşıyır.

*XQ*

## "Nəsimi Məişət Malları" ASC-nin 2024-cü il üzrə mühasibat balansı

| | 1 yanvar 2024-cü il | 1 yanvar 2025-ci il |
|---|---|---|
| Əsas vəsaitlər | 73824,12 | 68656,00 |
| İstehsal ehtiyatları | - | - |
| Debitorlar | - | - |
| Pul vəsaitləri | 16337,37 | 160,00 |
| Balans aktivləri | 94699,66 | 92289,00 |
| Nizamnamə kapitalı | 85582,00 | 85582,00 |
| Kapital ehtiyatları | 2623,80 | - |
| Kreditorlar | 6493,86 | 6707,00 |
| Balans passivləri | 94699,66 | 92289,00 |
| Məhsulların satışından mədaxil | 47297,94 | 64247,04 |
| ƏDV | 7214,94 | 11564,46 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 13771,50 | 80090,00 |
| Mənfəət | 26311,55 | -15130,63 |
| Əmlak vergisi | 766,02 | 712,40 |
| Mənfəət | 25545,48 | -15843,03 |

## "Şüşəplastmas" ASC-nin 2024-cü il üzrə mühasibat balansı

| | 1 yanvar 2024-cü il | 1 yanvar 2025-ci il |
|---|---|---|
| Əsas vəsaitlər | 629330,36 | 576821 |
| İstehsal ehtiyatları | 118666,11 | 118127 |
| Debitorlar | 13906,59 | 10662 |
| Pul vəsaitləri | 18226,35 | 238 |
| Balans aktivləri | 780129,41 | 823541 |
| Nizamnamə kapitalı | 297348,00 | 297340 |
| Kapital ehtiyatları | 373212,38 | 373212 |
| Kreditorlar | 89261,68 | 80043,9 |
| Balans passivləri | 780129,41 | 823541 |
| Məhsulların satışından mədaxil | 348581,79 | 203470,5 |
| ƏDV | 53173,49 | 36624,6 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 264523,97 | 321163,21 |
| Mənfəət | 30884,33 | -111205,2 |
| Əmlak vergisi | 6581,12 | 6487,51 |
| Mənfəət | 24303,21 | -117692,71 |

## "ALMET" ASC-nin 2024-cü il üzrə mühasibat balansı

| | 1 yanvar 2024-cü il | 1 yanvar 2025-ci il |
|---|---|---|
| Əsas vəsaitlər | 349741,41 | 109957,00 |
| İstehsal ehtiyatları | 200738,85 | 0 |
| Debitorlar | 69447,11 | 64122,00 |
| Pul vəsaitləri | 1126,21 | 1126,21 |
| Balans aktivləri | 786665,10 | 749269,00 |
| Nizamnamə kapitalı | 314454,00 | 314454,00 |
| Kapital ehtiyatları | - | - |
| Kreditorlar | 472211,10 | 434815,00 |
| Balans passivləri | 786665,10 | 749269,00 |
| Məhsulların satışından mədaxil | 213084,91 | 141250,00 |
| ƏDV | 32504,47 | 25425,03 |
| Satılmış məhsulların istehsal məsrəfləri | 165365,96 | 145199,66 |
| Mənfəət | 15214,47 | -1651,02 |
| Əmlak vergisi | 3833,94 | 2298,49 |
| Mənfəət | 11380,53 | -3949,51 |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 157 (30851) 31 iyul 2025-ci il, cümə axşamı

# Göylərə açılan daş qapıdır Göyəzən

## *Qazaxın köksündən baş qaldıran dağ həm əfsanədir, həm tarix, həm də yurdsevərlik ünvanı*

**Qazax düzlərinin qoynunda, səssiz və təmkinli şəkildə ucalan Göyəzən dağı hələ onu uzaqdan görənlərin belə içində bir kövrəklik oyadır. Əgər sən Göyəzəni görməmisənsə, deməli, Qazaxın ruhunu tam duymamısan. Onu duman bürüyəndə, zirvəsi səmaya qarışanda sanki zaman dayanır.**

Sən bu dağın qarşısında dayanan zaman içində qəribə bir hiss baş qaldırır – torpağın nəfəsi sənin nəfəsinlə birləşir. Göyəzən sadəcə dağ deyil, elə bil bir canlıdır – minillərin səsini içində saxlayan, danışmaq istəyib də səsini çıxarmayan bir qoca nənə kimi.

### Tənhalığın sükutu

Göyəzən ucalır. Tək ucalır. Ətrafında nə onu tamamlayan dağlar var, nə də boyuna çatan təpələr. Sanki tale onu Qazaxın sinəsinə bir işarə kimi vurub. Elə bir işarə ki, hər baxan onda ayrı bir sirr görür. Küləklər başında uğuldayanda, elə bil o danışır: “Kimlər gəldi, kimlər getdi... Mən burdayam.”

Bu dağın baxışlarında həsrət var. O, sərhədin o tayına boylanır – nə vaxtsa bir olan torpağın, bu gün həsrətində olduğu ərazilərin üzərinə…Hər qarışına bir dua, bir ağı qarışmış bu torpağın yeganə şahidi kimi.

### Dilsiz əfsanə

Deyirlər, qədim zamanlarda bu yerlərdə Göyəzən adlı bir qız yaşayıb – gözəlliyi dillər əzbəri, tənhalığı isə ürək dağlayan. O, hər gecə göyə boylanar, dua edərmiş: “Kaş göylərə çata biləydim.”

Amma göy susarmış. Quşlar onun həsrətini daşısa da, cavab yoxmuş. Qız bir səhər göy üzünə baxıb pıçıldamış: “Mən dağ olacağam.” Və o andan bəri bu torpaqda Göyəzən dağı var.

İndi bu dağa çıxanlar deyirlər ki, sükutun içində bir qız baxır – sənin içinə, sənin vicdanına. Onun saçları qayalara bükülüb, nəfəsi hələ də zirvədədir.

### Daş yaddaş

Göyəzən təkcə əfsanələr deyil. Onun ətəyində arxeoloji tapıntılar, qədim qala izləri, mağaralar var. Qazıntılar göstərir ki, bu dağın qoynunda min illərdir həyat olub. Hər daşın içində bir insan izi, bir nəfəs var.



Buranı sadəcə dağ deyib keçmək olmaz. Göyəzən həm də Qazaxın tarix kitabıdır – daşdan yazılmış, küləklə səslənmiş.

### Sadəcə, dağ deyil...

Bu gün Göyəzəni qorumaq yalnız onun daşını, torpağını qorumaq deyil. Onun yaddaşını qorumaq, əfsanəsini yaşatmaq, tarixini gələcək nəsillərə ötürməkdir. Göyəzən turistlər üçün sadəcə gözəllik



deyil – ruhun abidəsidir. Onun ətrafı təmiz saxlanmalı, əfsanəsi danışılmalı, hər bir kənd uşağı onu tanımalıdır.

Çünki yerli əhali üçün Göyəzən təkcə dağ deyil – vətəndir. Hər bir qazaxlı onun kölgəsində böyüyür, onunla nəfəs alır. Göyəzən onların yaddaşında, laylalarında, səssiz dualarında yaşayır.

### Və bir gün Göyəzən dil açacaq

Bir gün bu dağ dilə gələ bilər. Bəlkə o zaman əfsanələr həqiqətə qarışar, bəlkə o zaman sərhədlər yox olar, bəlkə də o zaman xalqın köksündəki sızıltı bitər.

Amma o günə qədər Göyəzən gözləyir. Zirvəsində bir kövrəkliklə, sanki:

“Mən hələ buradayam...” deyə pıçıldayır...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Qazax**

# Okean sahilində yaşayanlar daha uzunömürlü olurlar

**Alimlər uzunömürlülüklə insanın yaşadığı su hövzəsi arasında əlaqə tapıblar. Məlum olub ki, çaylar və göllərin ətrafında yaşamaqdan fərqli olaraq, okeanların yaxınlığında yaşamaq ömrü uzadır. Bununla bağlı Ohayo Dövlət Universitetinin alimləri tədqiqat aparıblar.**



Tədqiqat qrupu okeanlara, körfəzlərə, göllərə və çaylara yaxınlığın gözlənilən ömür uzunluğuna necə təsir göstərə biləcəyini öyrənmək üçün Amerika Birləşmiş Ştatları üzrə 66 mindən çox fakt üzrə məlumatları təhlil ediblər. Nəticələr “Environmental Research” jurnalında dərc olunub.

Yaşayış yerləri arasındakı fərq, sözün həqiqi mənasında, illərlə ölçülüb. Belə məlum olub ki, okean və ya dəniz körfəzindən 50 kilometr məsafədə yaşayan sakinlər orta hesabla bir ildən də artıq uzun ömür sürürlər. ABŞ-da orta ömür uzunluğu 79 il olduğu halda, sahilyanı ərazilərdə yaşayanlar 80 il və ya daha çox yaşaya biliblər. Ancaq daxili su obyektlərinin – çaylar və göllərin yaxınlığında yaşayanlar, xüsusən də həyatını şəhərlərə bağlayanlar, əksinə, daha az yaşayırlar - təxminən 78 il.

Səbəblər ekoloji və sosial amillərin kompleks təsiri ilə izah olunur. Okean və dəniz sahili bölgələri daha mülayim iqlimə, daha az isti günlərə, daha yaxşı hava keyfiyyətinə, daha yüksək gəlirlərə və fiziki fəaliyyət üçün daha çox imkanlara malikdir. Belə ərazilər inkişaf etmiş infrastruktura və daha az quraqlıq riskinə malikdir. Lakin çayların və göllərin yaxınlığındakı şəhərlərdə daha çox çirklənmə, yoxsulluq olması, yaşıllıq və gəzinti sahələrinin olmaması, eləcə də zaman-zaman daşqın riski olur.

Ohayo Dövlət Universiteti alimlərinin tədqiqatı müxtəlif su növlərinin uzunömürlülüyə təsirini sistematik şəkildə müqayisə etmək üçün aparılmış ilk böyük araşdırmadır. Əvvəllər çoxlarına məlum idi ki, suya yaxınlıq piylənmə riskini azalda və ürək sağlamlığını yaxşılaşdıra bilir. İndi tədqiqatçılar dəqiqləşdiriblər ki, şərt yalnız su yaxınlığında yaşamaq deyil, həm də hansı su hövzəsinə yaxın yaşamaqdır.

Qeyd edək ki, daha əvvəl “Science Mail” nəşri kimi dünyanın ən yaşlı adamı hesab etdiyi, onun həyat və vərdişlərinin uzunömürlülüyün sirlərini açmağa kömək edə biləcəyi barədə yazı dərc etmişdi.

***P.ƏMİRCANOV***
***XQ***

## İDMAN

### Paralimpiyaçılarımız 6 ayda 22 medal qazanıblar




**2025-ci ilin ilk 6 ayı ərzində Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin idmançıları müxtəlif beynəlxalq turnirlərdə yüksək nəticələr göstəriblər. Komanda 6 qızıl, 6 gümüş və 10 bürünc olmaqla ümumilikdə 22 medal, eləcə də 2 feyr-pley mükafatı qazanıb.**

Məsələn, bu ilin aprel ayında Serbiyanın Zlatibor şəhərində keçirilən ISF U-15 Gimnaziada İdman Oyunlarında parabadminton və paraüzgüçülük üzrə yarışan idmançılar 3-ü qızıl olmaqla, ümumilikdə 9 medal və 2 feyr-pley mükafatına layiq görülüblər.

May ayında isə Tbilisidə təşkil olunan parapauerliftinq üzrə Dünya Kubokunda milli komanda 3 qızıl və 3 gümüş medal qazanaraq fəxri kürsüyə yüksəlib. Həmin ay Fransada baş tutan Dünya Seriyasında paraüzgüçü Əli Vəliyev bir neçə məsafədə şəxsi rekordlarını yeniləyərək ilk dəfə 400 metr sərbəst üzmə yarışında iştirak edib.

İyun ayında da idmançılarımız yaxşı nəticələr əldə ediblər. Paralimpiyaçılarımız bundan sonra da uğurlarını davam etdirmək əzmindədir.

### “Qarabağ” növbəti mərhələdə!



**Dünən axşam Ağdamın “Qarabağ” futbol klubu UEFA Çempionlar Liqasının II təsnifat mərhələsində İrlandiyanın “Şelburn” komandası ilə cavab matçına çıxıb.**

Tofiq Bəhramov adına Respublika stadionunda keçirilən görüşü italiyalı referi Andre Kolombo idarə edib. Qarşılaşma Ağdam təmsilçisinin 1:0 hesablı qələbəsi ilə yekunlaşıb.

İlk oyunda rəqibi üzərində 3:0 hesablı qalibiyyət əldə edən Qurban Qurbanovun kollektivi III təsnifat mərhələsinə vəsiqə qazanıb..

### Futbol hakimimiz UEFA təyinatı alıb



**Azərbaycanlı FIFA referisi Elçin Məsiyev UEFA Superkubokuna təyinat alıb. UEFA Superkubokunun PSJ (Fransa) – “Tottenhem” (İngiltərə) qarşılaşmasının dördüncü hakimi olacaq.**

Oyunu portuqaliyalı Joao Pedro Silva Pineyro idarə edəcək. Qeyd edək ki, görüş avqustun 13-də İtaliyanın Udine şəhərindəki “Fruili” stadionunda keçiriləcək.

***MH ACIXANLI***
***XQ***

*✓ 2018-ci il iyunun 29-da “Kainat Tədris Mərkəzi” MMC tərəfindən Babaşov Fəxri Əfan oğlunun adına verilmiş AB seriyalı, 000831 nömrəli sertifikat itdiyi üçün etibarsız sayılır.*

## Hava

# İyulun son qızmar günü...



**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin günəşli keçəcəyi gözlənilir. Şimal-şərq küləyi əsəcək, gündüz cənub-şərq küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 23-27, gündüz 33-38 dərəcə isti olacaq. Atmosfer təzyiqi normadan aşağı - 756 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-80, gündüz 45-50 faiz təşkil edəcək.**

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz bəzi dağlıq ərazilərdə qısamüddətli az yağış yağacağı, şimşək çaxacağı, gecə və səhər duman olacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 23-27, gündüz 35-39, bəzi yerlərdə 41 dərəcəyədək, dağlarda gecə 15-20, gündüz 28-33 dərəcə isti olacağı ehtimal edilir.

***QQ ASIMOV***
***XQ***

# Xınalıq məktəbi təmir edilir



**Azərbaycanın ən ucqar yaşayış məskənlərindən olan Qubanın Xınalıq kəndində məktəb binasının təmirinə başlanılıb.**

Rəfayıl Kəlbiyev adına Xınalıq kənd internat tam orta ümumtəhsil məktəbində cari təmir işlərinin yeni tədris ili ərəfəsində yekunlaşdırılması nəzərdə tutulub. Məktəb binasının tavanı, fasadı və döşəməsi yenilənir.

Qeyd edək ki, son iki il ərzində Quba-Xaçmaz Regional Təhsil İdarəsinin tabeliyində olan 67-dən çox məktəbdə cari, 12 məktəbdə isə əsaslı təmir işləri həyata keçirilib. 5 modul tipli yeni məktəb istifadəyə verilib, 7 məktəb binası isə sökülərək yenidən tikilib.

Hazırda Quba rayonunun Hacıhüseynli kəndində 528 şagird yerlik, Qusar rayonunun Kuzunqışlaq kəndində 220 şagird yerlik, Cibir kəndində 264 şagird yerlik, Şabran rayonunun Ağalıq kəndində isə 648 şagird yerlik məktəb binasının tikintisi davam edir.

***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3328
SİFARİŞ 1514
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV
Çapa imzalanmışdır 00:00